# Şəhidlər ölmür!

Bu bir xalq qəzetidi

ƏDALƏT

## Türkiyə və Azərbaycan birgə təlimlərə başlayır

**Türkiyənin Qars şəhərində keçiriləcək ”Qış təlimi-2021”də Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları iştirak edəcək.**

Təlimə cəlb edilmiş şəxsi heyət və hərbi texnikaların təlim yerinə yola salınması münasibəti ilə mərasim keçirilib.

Adalet.az xəbər verir ki, mərasimdə Dövlət Himni səsləndirildikdən sonra çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanının birinci müavini-qərargah rəisi, general-mayor Fazil Ağalarov Azərbaycan-Türkiyə hərbi-texniki əməkdaşlığından, hər il Naxçıvan və Qars şəhərlərində keçirilən birgə hərbi təlimlərin əhəmiyyətindən, Müzəffər Ordumuzun Vətən müharibəsində qazandığı şanlı qələbədən danışaraq ”Qış təlimi-2021”də iştirak edəcək bölmələrə uğurlar arzulayıb.

## 6500 şəhid ailəsi üzvünə sosial ödənişlər təyin edilib



*"Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, əsas sosial hədəflər möhtəşəm Zəfərimizlə başa çatan Vətən müharibəsi şəhidlərinin ailələrinin, qazilərimizin sosial dəstəklə, yaralanmış hərbçilərin tibbi-sosial reabilitasiya xidmətləri, müasir protezlərlə təmin olunmasıdır".*

*Adalet.az xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov ötən il sosial sahədə görülən işlərə və 2021-ci ilin sosial hədəflərinə dair keçirilən mətbuat konfransında bildirib. Nazir müavini qeyd edib ki, postmüharibə dövründə 11 mindən çox şəhid ailəsi üzvü, qazi, müharibədən zərər çəkən şəxs dəstəklə əhatə olunub: "O cümlədən, 2650 şəhidin 6500 ailə üzvünə sosial ödənişlər təyin edilib, eləcə də qeyd edilən kateqoriyalardan olan şəxslər aktiv məşğuluq proqramlarına cəlb olunub, onlara sosial-psixoloji dəstək və reabilitasiya xidmətləri göstərilib". Nazir müavini son bir ildə daha 1500 şəhid ailəsi və müharibə ilə əlaqədar əlilliyi olan şəxsin mənzil və fərdi evlə, 400 müharibə əlilinin avtomobillə təmin edildiyini deyib: "İndiyədək bu kateqoriyalardan olanlara 9100-dən çox mənzil və fərdi ev, 7200-dən çox avtomobil verilib".*

## Əməkdaşlıq memorandumu imzalandı



**İranın paytaxtı Tehran şəhərində Azərbaycan və İran arasında dəmiryol sahəsində əməkdaşlıqların inkişaf etdirilməsi üzrə memorandum imzalanıb.**

Adalet.az-ın məlumatına görə, əməkdaşlıq memorandumunu Azərbaycanın Dəmir Yolları QSC-nin sədri Cavid Qurbanov və İranın yol və şəhərsalma nazirinin müavini və İranın Dəmiryol Şirkətinin icra direktoru Səid Rəsuli imzalayıb. Memoranduma əsasən, iki ölkənin məhsul tranziti ildə 2 milyon ton artacaq. Hər iki tərəf memorandum çərçivəsində dəmiryol əməkdaşlıqlarının inkişaf etdirilməsi üzrə razılığa gəliblər.

Qeyd edək ki, ötən ildə koronavirus pandemiyasının yayılmasına baxmayaraq, iki ölkə arasında dəmiryol vasitəsi ilə məhsul tranziti 480 min tondan çox olub.

## Karantini pozan 5 nəfər həbs edildi

**Ölkə üzrə karantin rejimi qaydalarını pozan şəxslərin sayı açıqlanıb.**

Bu barədə Adalet.az -a DİN-in Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, yanvarın 16-dan 18-dək ölkə üzrə karantin rejimi qaydalarını pozan 5 nəfər barəsində inzibati həbs, 2 746 nəfər barəsində digər inzibati tənbeh tədbirləri tətbiq olunub.

## BAYDEN ERMƏNİLƏRİ YIĞIR BAŞINA



**İki erməniyə yüksək vəzifə verib. Allah köməyi olsun, elə bu Kaliforniyada-zadda bir az da torpaq ayırıb Ermənistan ermənilərini də ora daşısa həm Rusiyanın canı ermənilərin nazını çəkməkdən qurtarar, həm də Türkiyənin, Azərbaycanın, Gürcüstanın əhalisi rahat yaşayar.**

**Bir az İranda dilxorçuluq olar, o da keçib gedər.**


Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 006 (5838) 19 yanvar 2021-ci il | Qiyməti 30 qəpik


## HİDAYƏT ELVÜSALDAN GÜNÜN STATUSU



**Ey, o zaman, 20 yanvarda qaçıb gizlənənlər, bu gün çıxıb qəhrəmanlığınızdan, geydirmə xatirələrinizdən danışmayın.**

**Hamınızı tanıyırıq.**

# Prezident: “Biz daha güclü Azərbaycan quracağıq”




Bax:səh-2


## HƏLƏ KƏNDDƏ HAMAM DA TİKƏCƏYİK...



***Belə getsə, vallah, camaat kirə çıxacaq. Deyirəm, Dünya Səhiyyə Təşkilatından bəlkə xahiş edək hamamların işləməsinə icazə versin, camaat getsin kirinipasını töksün.***

## 20 Yanvar günü bu yollar bağlanacaq





**20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar paytaxtın bəzi küçə və prospektlərində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq.**

Daxili İşlər Nazirliyindən Adalet.az -a verilən məlumata görə, 20 Yanvar günü səhərdən başlayaraq, Azərbaycanın hökumət və dövlət nümayəndələri, diplomatik korpusun təmsilçiləri, sıravi vətəndaşlar 20 Yanvar faciəsinin qurbanlarının dəfn olunduğu Şəhidlər Xiyabanını ziyarət edəcəklər. Xüsusi tədbirlər planına uyğun olaraq, ziyarətçilərin təhlükəsizliyini təmin etmək məqsədilə yanvarın 20-si saat 07:00-dan mərasim başa çatanadək Şəhidlər Xiyabanı istiqaməti üzrə küçə və prospektlərdə nəqliyyat vasitələrinin hərəkəti məhdudlaşdırılacaq: "Bununla əlaqədar vətəndaşlarımızı həmin gün şəxsi nəqliyyat vasitələrindən mümkün qədər az istifadə etməyə, ölkədə tətbiq edilən karantin rejim qaydalarına əməl etməyə çağırırıq.

Diqqətə çatdırırıq ki, virusun yayılmasının qarşısının alınması məqsədilə ziyarətçilər sosial məsafəni gözləməli, mütləq qaydada tibbi maskalardan istifadə etməli, beş nəfərdən artıq qruplarda hərəkətdən çəkinməlidirlər".

## YAŞASIN ÇİN XALQ RESPUBLİKASI!

**Bir xanım məlum videoya rəy yazıb: ”Çin hökumətinə təşəkkür edirəm, həm vaksini tapdılar, həm də Oqtay Şirəliyevi”.**

**Tünzalə Xəlilova**

## MİLLƏT OQTAY ŞİRƏLİYEVİN ÇOX HƏSRƏTİNDƏ İDİ



*Buyurun, bu da Oqtay doktor. Və ilk peyvənd də hörmətli səhiyyə nazirimiz oldu.*

*Yəni, peyvənd olunmaqdan qorxmayın. Pis şey olsa Oqtay doktor istefa verərdi, amma peyvənd vurdurmazdı.*

## 4700 mənzil şəhid ailələrinə nə vaxt veriləcək?

**”Keçmiş köçkünlər üçün tikilmiş 4700 mənzilin Prezident İlham Əliyevin göstərişi ilə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən Nazirliyin balansına verilməsi prosesi bitmək üzrədir”.**

Adalet.az xəbər verir ki, bunu Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov 2020-ci ildə sosial sahədə aparılmış işlər və nəticələrinə dair mətbuat konfransında deyib.

Onun sözlərinə görə, bu, növbədə müharibə əlilləri, şəhid ailələrinin mənzil təminatını erkən vaxtda icra etməyə imkan verəcək:

”Növbəti həftələr ərzində aktiv şəkildə mənzillərin verilməsini müşahidə edəcəyik”.

## LAVROV YENƏ NALA-MIXA VURUR



**Deyir ki, Qarabağın status məsələsi ziddiyyətlidi. Hələ ki bu məsələ bir tərəfə qoyulub, gələcəyə saxlanılıb və bununla da ATƏT-in Minsk qrupunun həmsədrləri məşğul olmalıdırlar.**

Birincisi, siz Rostovda, Stavropolda kompakt halda yaşayan 300-400 min erməniyə status verin, ondan sonra biz Dağlıq Qarabağda yaşayan 60 min erməniyə hansı status verəcəyimizlə bağlı fikirləşərik.

**Biz Ermənistanda yaşayan ermənilərə status vermişik, dövlətlərini qurublar. Dədələrinə də bəsdi.**

## NAVALNINI DA SAVİNKOVUN TALEYİ GÖZLƏYİR



***İnqilabdan sonra Rusiyada müxalifətin bir lideri vardı - Savinkov. Qaçıb getmişdi Avropaya. NKVD agentləri vasitəsilə onu inandırdılar ki, rus xalqı sənin yolunu gözləyir. Sən elə Moskvaya düşən kimi bolşevikləri hakimiyyətdən qovacaqlar, hakimiyyəti verəcəklər sənə. Və Avropa qəzetlərində, eləcə də Rusiya qəzetlərində NKVD-nin tapşırığı ilə onun haqqında mədhiyyələr, xalqın sevgisi və sair və ilaxır məqalələr dərc olundu. Axır ki, inandı və qatara minib gəldi Moskvaya.***

***Həqiqətən də NKVD-nin "xalqı" vağzalda onu güllə-çiçəklə, orkestrlə qarşıladı. Ordan da apardılar bahalı bir restorana, bahalı bir məclis təşkil elədilər, haqqında sağlıqlar, məclis qurtardı və apardılar güllələdilər. İndi də Navalnı deyəsən Savinkovun taleyini yaşayacaq.***

***Düzdür, ABŞ hirslənib, Avropa da yaxasını cırır.***

***Və sonda. ABŞ Rusiya qoşunları Abxaziyanı, Osetiyanı işğal edib Tiflisin 30 kilometrliyinə çatanda Gürcüstanın arxasından qaçıb bir bəyanat verdiyi kimi, bir bəyanat verəcək.***

## Azərbaycan hərbi gücünə görə Cənubi Qafqazda liderdir

**Azərbaycan 2021-ci il üzrə "Qlobal atəş gücü" (Global Firepower Index) reytinqində 138 ölkə arasında 64-cü yerdə qərarlaşıb. Adalet.az-ın məlumatına görə, bu, Cənubi Qafqaz regionunda ən yüksək göstərici olub. Region ölkələrindən Gürcüstan 92-ci, Ermənistan isə 100-cü yerdə qərarlaşıb.**



**Qeyd edək ki, "Qlobal atəş gücü" reytinqi aviasiya, zirehli texnika, müxtəlif qoşunların göstəriciləri, eləcə də təbii ehtiyatlar, işçi qüvvəsi, nəqliyyat və logistika imkanları da daxil olmaqla 50 amil əsasında tərtib olunur.**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## SİZ NİZAMİNİ DƏ, BU XALQI DA TƏHQİR ETMİSİNİZ



**Atam üçün dünyada üç şair vardı: Nizami, Sabir və Səməd Vurğun. Məni də bu ruhda böyüdürdü.**

**Elçiliyə gedəndə yalvardım ki:**

**- Ata, sənə qurban olum, Məmməd Araz görkəmli şairdi, onunla poeziyadan mübahisə eləmə.**

**Kimə deyirsən? Başlayıb Nizamidən, Sabirdən, Səməd Vurğundan və deyib ki, şair onlardı.**

**Məmməd Araz qayıdıb ki:**

**- Bəs, Füzuli?**

**Atam:**

**- Füzuli mənim kəndçimdi, bizim Bayatdandı, çox istəyirəm. Amma Nizaminin yanında...**


**Bax: səh.2**


## GÜNÜN LƏTİFƏSİ

Təyyarəçi kefli halda gecəyarı evinə qayıdır. Qapının zəngini basır. İçəridən arvadı:

**- Kimdir?**

- Tu-154 enmə zolağı tələb edir!

Kişinin içkili olduğunu görən qadın:

**- Sən keflisən, açmayacam.**

- Onda mən getdim ehtiyat aerodroma.

Səhəri təyyarəçi qayıdır evə, yenə qapının zəngini çalır:

- Tu-154 enmə zolağı tələb edir.

Qadın içəridən:

**- Sən gözləməli olacaqsan, hələ il-76 uçmayıb...**

## Prezident: “Biz daha güclü Azərbaycan quracağıq”



**Azad edilmiş torpaqların idarə edilməsi ilə bağlı fikirlərim var. Bu fikirlər yaxın zamanlarda həyata keçiriləcək. O bölgələrdə mövcud olan vəziyyətə uyğun müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin - şəhərsalma, dövlət orqanlarının funksiyaları.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sumqayıtda Azərbaycan Televiziyasına müsahibəsində danışıb.

Prezident qeyd edib ki, ölkəmizin müxtəlif yerlərində bəzi xoşagəlməz hallar məhz nəzarətsizlik ucbatından baş verir: ”Bəzi yerlərdə torpaqlar zəbt edilir, insanların əlindən alınır, qeyri-ədalətli şəkildə bölünür. O cümlədən su resursları qeyri-ədalətli şəkildə bölünür, bəzilərinə su çatır, bəzilərinə su çatmır. Bütün bunlar bizə yaraşmır. Biz özümüzü bu qüsurlardan təmizləməliyik və təmizləyirik. Təmizləmə prosesi gedir və gedəcək. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı var. Yaxud da ki, kimsə özünü toxunulmaz hesab etməsin”.

Dövlətimizin başçısı deyib: ”Azad edilmiş torpaqlarda hər şey demək olar ki, dağıdılıb. Ona görə biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra biz onu bütün başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək, mövcud qüsurlar aradan qalxsın və ölkəmizin uğurlu inkişafı təmin edilsin. Mənim, əlbəttə ki, əsas işim Qarabağ məsələsinin həlli və sentyabr ayından başlayaraq gedən müharibəyə Ali Baş Komandan kimi rəhbərlik etməyim idi. Bu gün də mənim fəaliyyətimdə o bölgələrin - Qarabağ bölgəsinin bərpası xüsusi yer tutur. Bu, təsadüfi deyil, bu, təbiidir. Ancaq, eyni zamanda, mən ənənəvi iş fəaliyyətimə də həmişə diqqət yetirmişəm. Sumqayıta gəlməyim onu bir daha göstərir.

Müharibə başa çatdı, müzəffər Ordumuz müharibədə qələbə çaldı, düşməni məğlub etdi. Azad olunmuş torpaqların bərpası üçün əlimizdən gələni edəcəyik. Hər gün mənim işimin əsas hissəsi buna həsr olunur. Ancaq digər ərazilərin inkişafı da heç vaxt yaddan çıxmayacaq, Azərbaycan xalqı əmin ola bilər. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, daha güclü Azərbaycan quracağıq”.

## İlham Əliyev: “Ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək”

**Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda, son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var.**

Adalet.az xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında ”Azərsulfat” MMC-nin sulfat turşusu istehsalı, ”Glassica” QSC-nin şüşə tara məhsullarının istehsalı zavodlarının təməlqoyma və ”Azerfloat” QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsinin açılış mərasimlərindən sonra Azərbaycan Televiziyasına müsahibəsində söyləyib.

Əvvəllər Sumqayıtın ekoloji fəlakət zonası olduğunu xatırladan dövlətimizin başçısı deyib:

”Biz isə Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə, insanların sağlamlığını nəzərə almışıq. Bildiyiniz kimi, sovet vaxtında burada tikilmiş çoxsaylı müəssisələr istismar müddətini başa vurmuşdu, sıradan çıxmışdı və ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi.

O müəssisələr söküldü və mənim göstərişimlə 10 il bundan əvvəl onların ərazisində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Son illər ərzində bu sənaye parkı o qədər böyüdü və genişləndi ki, artıq göstəriş verildi, əlavə torpaq sahələri tapılsın və bu istiqamətdə işlər aparılır. Bu müəssisənin təməlini 2017-ci ildə mən özüm şəxsən qoymuşam və şadam ki, artıq 100 milyon avro dəyərində bu böyük layihə həyata keçdi və bizi vərəqə şüşələrin idxalından azad edəcək. Bu, o deməkdir ki, valyuta qalacaq ölkəmizdə, yerli istehsal canlanacaq, iş yeri yaradılacaq və iqtisadiyyatımızın şaxələndirilməsi təmin ediləcək”.

Prezident qeyd edib ki, biz hətta dünya bazarlarında neftin qiymətinin aşağı səviyyədə olduğu bir dövrdə də öz dayanıqlılığımızı qoruya bilmişik. ”Mən bu yaxınlarda ilin yekunları ilə bağlı keçirdiyim müşavirədə qeyd etdim ki, bizim valyuta ehtiyatlarımız azalmayıb, hətta az da olsa, artıb. Nəyə görə? Çünki qeyri-neft sektoru uğurla inkişaf edib. Bütün dünya ölkələrində 2020-ci il iqtisadi tənəzzül ili olmuşdur, bizdə də, həmçinin. Amma bizdə tənəzzül cəmi 4,3 faiz olmuşdur. İnkişaf etmiş bəzi ölkələrdə bu, daha böyük rəqəmlərlə ölçülür.

Amma bizdə qeyri-neft sənaye sahəsində artım 12,5 faiz olub, məhz bu kimi müəssisələrin hesabına. Sənaye, kənd təsərrüfatı, qeyri-neft sektoru, ixrac imkanları, idxaldan asılılığın azaldılması - bütün bu amillər bugünkü yeni reallığı yaradıb.

Beləliklə, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# Geri alınan heykəllər, Vətənə qayıdış, intibahımızın rəmzi...

*”Əziz Şuşa, sən azadsan. Əziz Şuşa, biz qayıtmışıq. Əziz Şuşa, biz səni dirçəldəcəyik”*

*Prezident İlham Əliyev*

Müharibədən 2 ay keçməsinə baxmayaraq qısa bir zaman ərzində Prezident İlham Əliyevin də dediyi kimi, Şuşa şəhəri artıq dirçəlir. Respublika Prezidenti tərəfindən Şuşa şəhəri ”mədəniyyətimizin paytaxtı” elan edildi və ”mədəniyyətimizin paytaxtı” elan edilən Şuşa özünün milli-mənəvi dəyərlərinə qovuşdu. O dəyərlərinə ki, erməni vandalları tərəfindən güllələnmişdi, o dəyərlərinə ki, sonradan onları pulla geri almışdıq. Bizim olanı PULLA geri almışdıq. Xurşidbanu Natəvan, Üzeyir Hacıbəyov və Bülbülün heykəlləri... ”Güllələnmiş heykəllər”i... Onlar erməni vandalizminin şahidləridir.

1992-ci ilin may ayında Şuşanın işğalı zamanı bu heykəllər güllələnmiş, işğaldan sonra İrəvana, oradan isə Gürcüstana aparılmışdır. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Bakıya gətirilmiş və Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində yerləşdirilmişdir. O zaman Azərbaycana gətirilməsinə baxmayaraq bu heykəllər milli-mənəvi rahatlıq tapa bilməmişdi. Amma bu gün...



***Bu gün onların sahiblərinin ruhu şaddır. Prezident İlham Əliyevin yanvar ayının 14-də Şuşaya səfəri zamanı söylədiyi kimi, dahi şəxsiyyətlərimizin büstləri bizim Qələbə rəmzimizdir. Onlar Vətənə qayıdıblar.***

Bəli, Natəvan da, Üzeyir də, Bülbül də həmin gün Vətənə qayıtdı. Bu qayıdış mənə 1982-ci il Hüseyn Cavidin Vətənə dönüşünü xatırlatdı. Məhz həmin il Ümummilli Lider Heydər Əliyev Cavid ruhuna hörmət əlaməti olaraq onun nəşini qarlı Sibir torpaqlarından doğma Naxçıvanına geri gətizdirmişdi. Bu il isə Natəvan, Üzeyir və Bülbülün heykəlləri Şuşaya qaytarıldı. Ümumilli Liderin tarix yazan oğlu İlham Əliyev tərəfindən.

***Xarakterindən və məkanından asılı olmayaraq hər iki qayıdışın bir mənası var - ”Mədəniyyətə hörmət”.***

Milli ruhumuzun təcəssümü olan şəxsiyyətlərin, xüsusən də, Üzeyir bəyin büstünün, Qafqazın incisi, mədəniyyətimizin beşiyi olan Şuşaya qaytarılması yeni milli-mədəni intibahımızın rəmzidir. O rəmzi ki, Qafqazın Konservatoriyası sayılan Şuşa Üzeyir Hacıbəyovu yenidən öz ağuşuna alıb...

**Rövşən Tahir**

# DİN-də kollegiya iclası keçirilib

**Yanvarın 18-də Daxili İşlər Nazirliyində 2020-ci ildə cinayətkarlıqla mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmini sahəsində fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. Ölkədəki epidemik vəziyyətlə əlaqədar kollegiya videokonfrans formatında baş tutub.**





Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən Adalet.az -a verilən məlumata görə, tədbiri giriş sözü ilə açan nazir, general-polkovnik Vilayət Eyvazov qeyd edib ki, ötən il özünün bütün çətinlik və problemlərinə baxmayaraq, ölkəmiz üçün ən uğurlu illərdən biri oldu.

Uzun illər işğal altında qalan torpaqlarımız Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən düşməndən azad edilib, tarixi ədalət bərpa olunub. Bu döyüşlərdə Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu da iştirak edərək cəsarət və igidlik nümunələri göstərib, onlardan 65 nəfəri şəhid olub, 347 nəfəri yaralanıb. Nazirin təklifi ilə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. General-polkovnik Vilayət Eyvazov sonra hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2020-ci ildə ümumilikdə 26.004 cinayət qeydə alınıb ki, bu cinayətlərin 86,7 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib.

Ölkəmizdə cinayətkarlığa qarşı mübarizə, asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə davam etdirilib, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 8 fakt azalaraq 257 olub.

O da qeyd olunub ki, 2019-cu illə müqayisədə ötən il qəsdən sağlamlığa az ağır zərərvurma, mülkiyyət əleyhinə olan cinayətlər, o cümlədən oğurluq, soyğunçuluq, quldurluq, dələduzluq, avtonəqliyyat vasitələrinin qaçırılması kimi cinayətlər azalıb. Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri və istintaq hərəkətləri ilə cinayətlərin 85,5 faizinin, eləcə də, prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 310 cinayətin açılması təmin edilib. Məruzəçi "102" Xidmətinə daxil olan məlumatlar üzrə görülmüş operativ cavab tədbirləri ilə 2.288 cinayətin "isti izlər"lə, eləcə də "Təhlükəsiz şəhər" sisteminin imkanları ilə 477 cinayətin açıldığını, axtarışda olan 94 avtomobilin saxlanıldığını vurğulayıb.

Nazir qeyd edib ki, hesabat ilində həyata keçirilən operativ tədbirlər nəticəsində 254 kriminal qrup zərərsizləşdirilib, odlu silah saxlayan və daşıyan 161 şəxs cinayət məsuliyyətinə cəlb edilib. Qanunsuz dövriyyədən 1 ton 873 kiloqram narkotik vasitə çıxarılıb, yabanı halda yetişən 153 tondan çox narkotik xassəli bitki aşkarlanaraq məhv edilib. Məruzə ətrafında çıxış edənlər hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə yol verilən nöqsan və çatışmazlıqların aradan qaldırılması ilə bağlı planlaşdırılan konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran daxili işlər naziri Vilayət Eyvazov 2020-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcudluğunu nəzərə çatdırıb, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldərək konkret tapşırıq və tövsiyələrini verib.

**Sonda general-polkovnik V.Eyvazov nazirlik sistemində maddi texniki təminatın, xidmət şəraitinin daha da yaxşılaşdırılması, fəaliyyətin təkmilləşdirilməsi, sosial müdafiə işinin gücləndirilməsi üçün dövlət tərəfindən hərtərəfli köməklik göstərildiyini məmnunluqla qeyd edərək, bu ali diqqətə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, qanunla müəyyən olunmuş vəzifələr bundan sonra da yüksək səviyyədə yerinə yetiriləcəkdir.**

### *Hərbçilər də evdən işləyərmiş...*



**İsveçrədə koronavirus pandemiyası ilə bağlı maraqlı qərar verilib.**

Ölkədə koronavirus pandemiyasının geniş yayılmasının qarşısını almaq üçün 6 min hərbi qulluqçu kazarmalardan buraxılaraq ev şəraitində xidmət aparacaq. Onlar evdən onlayn xidmət aparacaq. Xüsusi tətbiq vasitəsilə isveçrəli hərbçilər evdə 6 saat məşq edəcək.

### *Türkiyə və İsrailin "barışacağı" tarix açıqlandı*



**Yaxın vaxtlarda dünyanın siyasi strukturu Türkiyənin lehinə dəyişəcək. ABŞ, Avropanın və regionun aparıcı ölkələri Türkiyə ilə əməkdaşlığı dərinləşdirməyə məcbur olacaqlar. Yeni geosiyasi reallıqlar bunu tələb edir.**

Bunu Türkiyənin tanınmış hərbi eksperti Mete Yarar CNN Türk telekanalının efirində deyib. "2017-ci ildə Fələstinə humanitar yardım aparan Türkiyənin "Mavi Mərmərə" gəmisinin israillilər tərəfindən hücuma məruz qalması nəticəsində doqquz Türkiyə vətəndaşı həlak oldu və Ankara İsraildəki səfirini geri çağırdı. Yaxın zamanlarda vəziyyət qaydasına düşəcək. Türkiyə ilə İsrail arasındakı diplomatik münasibətlərin bərpasına dair danışıqlar gedir. Həmin münasibətlərin tam bərpa olunması müddəti belə açıqlanıb - mart ayı. Görünən odur ki, Türkiyənin Yunanıstan, eləcə də Fransa ilə münasibətləri normallaşır. Məsələn, Fransa Prezidenti Emmanuel Makron Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla münasibətlərini yaxşılaşdırmaq üçün məktub göndərib.

**ABŞ-la da danışıqlar davam edir. Ərdoğan Donald Tramp administrasiyasının Ankaranı F-35 qırıcı təyyarələrinin tədarükü proqramından çıxarması qərarını "səhv" adlandırıb. Türkiyə lideri bildirib ki, o, Baydenlə bu məsələdə kompromis tapa biləcəyinə inanır. Bu o deməkdir ki, yaxın zamanda vəziyyət dəyişə bilər. Bununla yanaşı, ABŞ üçün Yaxın Şərq və Qafqaz siyasəti Türkiyəsiz mümkün görünmür", - o bildirib.**

### *Dünya itirir, almanlar varlanır - 7,1 trilyon yevro*



**Pandemiya dövründə avtomobil və elektroni avadanlıqlar istehsal edib satan alman xalqının sərvəti 7,1 trilyon yevroya yüksəldi. Bu keçən ilə nisbətdə 16,3 faiz daha çox qənaət deməkdir. Almanların pul yığmaq səbəbi isə işsizliklə və gələcəklə bağlı təlaşlarıdır. Pulların çoxusu da faiz verilməməsinə rəğmən banklardadır.**

Bu qənaəti rəqəmlərlə ifadə etsək 2020-ci il 2019-cu ilə görə 108 milyard yevro daha çoxdur.

Qeyd edək ki, Almaniyada əmlaka olan maraq da artmağa davam edir. Sərmayəçilərin həddən artıq marağı sayəsində Frankfurt, Münix, Düseldorf, Hamburq, Berlin kimi şəhərlərdə əmlak qiymətləri sürətlə artır.

### *ABŞ Somalidən qoşunlarını çıxarıb*

ABŞ hərbi kontingentinin Somalidən çıxarılması prosesi tam başa çatıb. Bu ölkədə qalan 700-dək hərbçi Cibuti və Keniyadakı bazalara köçürülüb. Ötən il dekabrın 4-də ABŞ-ın hazırkı prezidenti Donald Tramp qoşunların Somalidən yanvarın ortalarınadək çıxarılması barədə sərəncam vermişdi. Hazırda ABŞ-ın Afrika ölkələrində 6 min hərbçisi xidmət edir.

**Eminquey**

*Aqil ABBAS*

# SİZ NİZAMİNİ DƏ, BU XALQI DA TƏHQİR ETMİSİNİZ

**Atam üçün dünyada üç şair vardı: Nizami, Sabir və Səməd Vurğun. Məni də bu ruhda böyüdürdü.**

**Elçiliyə gedəndə yalvardım ki:**

**- Ata, sənə qurban olum, Məmməd Araz görkəmli şairdi, onunla poeziyadan mübahisə eləmə.**

**Kimə deyirsən? Başlayıb Nizamidən, Sabirdən, Səməd Vurğundan və deyib ki, şair onlardı.**

**Məmməd Araz qayıdıb ki:**

**- Bəs, Füzuli?**

**Atam:**

**- Füzuli mənim kəndçimdi, bizim Bayatdandı, çox istəyirəm. Amma Nizaminin yanında...**

**Axırda Məmməd Araz bir az hirslənib demişdi:**

**- Ay kişi, sən məndən qız istəməyə gəlmisən, yoxsa dava eləməyə?**

**Atam Nizamini farsca əzbər bilirdi. Deyirdi, oğul, Nizamini orijinaldan oxusan, onun, əstəğfürullah, Allah olduğunu görərsən. Tərcümədə Nizami o Nizami deyil və sair və ilaxır. Sonra farsca misralarını deyirdi və mənə sətri tərcümə edirdi.**

**Yalnız iki tərcüməni bəyənirdi: ”Sənsiz” və ”Sevgili canan”ı. Deyirdi ki, Cəfər Xəndan onu əruzda, Nizaminin ruhuna uyğun tərcümə edib, o birilər isə hecada. Sonra deyirdi ki, yaxşı ki, heç olmasa qəzəllərini əruzda tərcümə ediblər.**

**Günlərin birində böyük alim Rüstəm Əliyevin Nizaminin əsərlərinin sətri tərcümədən ibarət gərək ki, 5 cildliyi çıxdı. Atam həmin cildləri tapdırıb gətirdi, dedi, oxu, bala, gör Nizami kimdi.**

**Bunları niyə yazıram? Universitetin bir professoru Ağdamda qonağımız idi. Atam soruşdu ki, Professor, elmi işiniz nə haqdaydı?**

**- Nizami haqqında.**

**- Farsca bilirsiniz?**

**- Xeyr, bilmirəm.**

**Ömründə heç kəsin xətrinə dəyməyən atam birdən-birə qayıtdı ki:**

**- Day deyin Səməd Vurğundan, Məmməd Rahimdən, Süleyman Rüstəmdən müdafiə eləmisiniz də. Fars dilini bilmədən necə Nizami haqqında elmi əsər yazmaq olar? Siz həm Nizamini, həm də bu xalqı təhqir etmisiniz.**

**Evdə də xeyli qonaq, bir balaca pərtlik oldu.**

**Atamın professora belə irad tutması Nizamiyə sevgisindən irəli gəlirdi.**

**İndi ”Nizami ili”di. Yenə yazacaqlar - məqalələr, elmi əsərlər, monoqrafiyalar. Yaxşı olar ki, Nizamini orijinaldan oxumayanlara bir qadağa qoysunlar.**

### *Naxçıvanda tibbi sığorta ilə 5826 cərrahi əməliyyat aparılıb*



**Ötən il muxtar respublikada sığortahaqqı ödənilmədən icbari tibbi sığortadan istifadə edən sığortaolunanların müraciəti əsasında 11 mindən çox təcili tibbi yardım xidməti, 5 min 826 cərrahi əməliyyat, 12 mindən çox stasionar tibbi xidmət və digər xidmətlər göstərilib.**

Adalet.az xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində keçirilən iclasda qeyd olunub.

İclasda çıxış edən agentliyin direktoru Samiq Sadıxov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 1 dekabr tarixli müvafiq Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi publik hüquqi şəxs statuslu Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə çevrilib. Fərmanın icrasından irəli gələn məsələlərin həlli üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuş müvafiq qərara əsasən agentliyin strukturunda zəruri istiqamətlər üzrə əlavə və dəyişikliklər edilib. Bu da, öz növbəsində, agentlikdə idarəetmənin təkmilləşdirilməsinə, həmçinin tibb müəssisələri və sığortaolunanlarla qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinə müsbət təsir göstərib.

Qeyd edilib ki, ötən il icbari tibbi sığortanın əhatə etdiyi tibb müəssisələri ilə qarşılıqlı fəaliyyət göstərilərək 8 rayon və 9 respublika əhəmiyyətli olmaqla, ümumilikdə, 17 tibb müəssisəsi ilə müvafiq qanunvericilik aktlarına uyğun müqavilə bağlanılıb.

Təsdiq edilmiş tədbirlər planına uyğun olaraq vətəndaşların maarifləndirilməsi məqsədilə, ümumilikdə, 109 inzibati ərazi dairəsi üzrə 4 min nəfərə yaxın vətəndaşın iştirakı ilə maarifləndirici tədbirlər keçirilib.

Sonda çıxışlar dinlənilib.

### *Agentlik sədri: Azərbaycan pandemiyaya son qoyan ilk ölkələrdən olacaq*

**COVID-19-a qarşı vaksinasiya qısa müddətdə təsirini göstərəcək. Adalet.az-ın məlumatına görə, bunu dünən keçirilən brifinqdə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev deyib.**

O bildirib ki, bununla Azərbaycan pandemiyaya son qoyan ilk ölkələrdən olacaq:

”İlk növbədə tibb işçiləri vaksinasiyadan keçəcəklər. Güman edirəm ki bu vaksin ölkəmiz üçün uğurlu və xeyirli olacaq”.

Səxavət Məmməd



# Etməyin, eləməyin, haqqa girməyin

*Birinci Qarabağ müharibəsində kimi dindirirdin kəşfiyyatçı idi. İndi də, böyük hissəsi XTQ olub. Yaralananların böyük hissəsi də Şuşada yaralanıbmış. O gün biri iki jurnalisti inandırırdı ki, Şuşada yaralanmışam. Soruşdum, hansı qrupda olmusan, kimlərlə bir yerdə getmişdin? Əslində Hadrudun müdafiəsini təşkil edərkən yaralanıbmış.*

*Şuşa mənəvi dəyərdir. Qardaş, Füzulini, Cəbrayılı, Hadrudu, Xocavəndin bəzi kəndlərini işğaldan azad etmədən Şuşaya necə getmək olardı? Zəngilan, Qubadlı həmçinin. Ağdam, Ağdərə istiqamətinə işlər görülməsə qarşı tərəf qüvvəsini atardı qarşına axı. Bunun hamısı hesabdır. Mənə görə nəinki döyüşdə iştirak edən, o mərmi altında yemək bişirən əsgər də dəyərlidir.*

*Bir də, jurnalistlərimiz daha çox Şuşada döyüşən, Şuşada yaralanan axtarır. Ayrı-seçkilik də bu halların artmasına gətirib çıxarır. Bir XTQ-də xidmət edən zabitlə görüşüb, söhbətləşirdim. Deyir, o qədər bizim formada adam görürük ki, adam özündən şübhələnir.*

*Deyir, XTQ idim. Çəliminə baxırsan, XTQ-nin uşaqlarının daşıdığı yükü belinə vursan, hıqqınsa da, qaldıra bilməz, ancaq dili mən boyda.*

*Şuşaya girən qrupun sayı bəlli, istiqamətləri bəlli. Gopoloqların hamısı da bir şey əzbərləyib, texnikasız, bıçaq, tapança ilə döyüşürdük. XTQ nə vaxtdan texnika ilə hərəkət edən, döyüşən olub? Maarifləndirin məni.*

*Başa düşürəm diqqət görmək istəyirsiniz, çox gözəl, ancaq şişirtmə ilə, yalanla etməyin də bunu.*

*Müharibə bitəndən sonra prezidentin xarici mediaya verdiyi müsahibələrin hamısına diqqətlə baxdım. İlham Əliyevin qarşısına çıxan jurnalistlər daha çox Şuşadakı kilsənin vurulması sualları ilə sıxmağa çalışırdılar. Artilleriyaya haqsızlıq etmiş oluruq axı.*

*Etməyin, eləməyin, haqqa girməyin.*

# Biz bu Vətən qarşısında öz borcumuzu ödədik!

**Yordu, həqiqətən də yordu, artıq bu medal söz-söhbətləri! 2 həftədi evə qayıtmışıq hamı hal-əhval tutmamış medalın neçədi sualını verir?!**

Demək istəyirəm ki, ay millət mən gedib Tovuz döyüşlərinin ikinci günü Könüllü Əsgər kimi Komissarlıqda qeydiyyata düşəndə o göy üzlü dəftərə yazılmamışdı ki, sənə medal, maaş, mükafatlar, nə bilim nələrsə veriləcək... Mən bu Vətən qarşısında öz ən böyük borcumu ödədim. Mənimlə yanaşı minlərlə medalsız Könüllü Əsgər Yoldaşlarım da bu Vətəni dar gündə tək qoymadılar. Bu Vətən üçün Könüllü ölümə getdilər. Guya biz bilmirdik ki, müharibə nədir, könüllü olaraq müharibəyə, ölümə getmək nədir!!! Mənim minlərlə Könüllü Əsgər Yoldaşlarım bu gün medalsızdılar. Çünki biz minlərlə manat icra nümayəndələrinin cibinə pul basıb adımızı siyahıdan çıxartmadıq, pul verib həkimlərdən saxta xəstəlik kağızı almadıq, qaçıb orda-burda, şkafın dalında, ölkə xaricində gizlənmədik. Çünki bizim valideynlərimiz nazir, deputat, məmur deyildi. Biz pul verib gecə avtobuslardan qaçmadıq. Biz pul verib evimizdə yatmadıq. Biz kiməsə özümüzü tapşırtmadıq. Biz qaçıb gizlənmədik. Biz Ordumuza könüllü olaraq dəstək olmağa getdik. Biz bu Vətəni dar gündə satmadıq, atmadıq. Biz bu Vətən üçün Könüllü ölümə getdik. Bu gün o medal paylayanların hansının uzaqdan uzaq qohumu müharibəyə könüllü yazılmışdı?! Adi kənd icra nümayəndələri, bələdiyyələrin nəslindən bir nəfərlə də üzü-üzə gəlmədik. Onların övladlarının bizdən nə idi fərqi?! Adları siyahıdan çıxartmaq üçün milyonlar yedi yerli komissarlıqlar, icra nümayəndələri... Birdən-birə xəstə düşdülər. Saxta, rüşvətxor həkimlər rəy yazdılar... Könüllü Əsgər kimi şəkil çəkib paylaşanda fbookda minlərlə insan gördüm ki, onlar da komissarlıqdan şəkillər paylaşırdılar. Bəs onları hara getdi?! Cəhənnəmə getdilər?! Demək saxta imişlər?! Mənim Könüllü Əsgər Dostlarım hamısı kasıb ailələrin ailələrin övladları idi. Əlləri qabar, zülümkeş, işsiz...



### *Fəhlə, çoban, usta,*

***təkər dolduran, satıcı, mebel ustası, daş daşıyan, santexnik, quyu qazan, qarğı satan, maşın ustası, pambıq satan, küçə təmizləyən, parnik fəhləsi, yeşik daşıyan, qəbir qazan, çayçı, alverçi və s.... Onlar mənim Könüllü Əsgər Dost, Qardaşlarım idi...Hamısı da Vətənin dar günündə ona dəstək olmağa gəlmişdilər. Bu Vətənin əsl Qəhrəmanları idilər. Xahiş edirəm, əgər yolda, qonşuda, uzaqda bir yerdə belə gənclər görsəniz ayaq saxlayın, salam verin, hal əhval tutun. Bəlkə o da bu Vətənin Könüllü Əsgəri olub. Bəlkə o da ölümə Könüllü gedib, bu Vətən, bu Xalq üçün... Baxmayın boynunda medalı varmı, yoxmu... Ürəyini hiss edin... Onlardır, Əsl Azərbaycanlı, Vətən daşı... Əlləri daş daşıyıb, çiyinləri Vətəni daşıyıb...***

Ruhdan salmayın o gəncləri, bezdirməyin onları!!! Onlar Əsl Azərbaycanlıdırlar! Onlar bu VƏTƏNİN Qəhrəmanlarıdılar.

Görün nə qədər Könüllü Əsgərlərin valideynlərinin ürəyi partlayıb vəfat edir. Biz plasda təxris üçün hərbi biletimizi gözləyəndə bir Könüllü Əsgər Dostumuza zəng gəldi. Həmin an Qardaşımız yerə sərildi.

Atasının ömrü çatmadı 1 saata, oğlunu görəcəkdi... Görün Könüllü Əsgər Yoldaşlarımın ailələri nələr çəkib bu müharibə vaxtı... Bəziləri papalarının gül balasıdı. Bəziləri də bu Vətənin Könüllü ƏSGƏRİ, hər an ölümə hazır...

**İndi kimsə oturub isti kabinetində medal bölüşdürür. Soruşun görün onun nəslində kimsə könüllü müharibəyə yazılıb?!**

### *Səhər yenə müharibə başlasa*

yenə də o fəhlənin, medalsızın yaxasından tutub deyəcəksiniz get vuruş... Bu iki həftədə mənim telefonum dayanmayıb, hamı bu medal alverçilərindən şikayətlənir... Həqiqətən də bezmişəm... Siz niyə soruşmursunuz ki, getdiyimiz o yerlərdə KÖNÜLLÜ ƏSGƏR sözünün əsl mənasını dərk edən neçə nəfər vardı?! Bu gün medal vermədikləriniz idi həmin o bəzi "Qəhrəman" deyib ucaltıqlarınızın bütün işlərini görən... Sən könüllü gəlibsən işləməlisən, oturma, durma, yatma... Axı sən KÖNÜLLÜSƏN!!! Sən Könüllü gəlibsən get ölümə.... Öz işini, vəzifəsini görmək istəməyənlərin də yerinə bu gün medalsız qoyduqları KÖNÜLLÜLƏR işləyirdi. Görün nə qədər KÖNÜLLÜ ƏSGƏRİMİZ ŞƏHİD oldu... Könüllü Əsgərin kim olduğunu dərk etmək üçün gərək sənin də evindən kimsə müharibəyə könüllü getsin...

Qoşun növləri fərqlidir... Göydə torpaq olmur ki, deyəsən biz də göydən torpaq aldıq...

Bu gün başınızın üstündə təyyarələr uçmursa, yağış əvəzinə üstünüzə güllə yağmırsa, gözünüzdə günəş əvəzinə raket parlamırsa demək səmanız azaddır və işğal edilməyib. Bunu edən oğullarla qürur duymaq lazımdır!!!

**Mənim medalsız 247 KÖNÜLLÜ ƏSGƏR Qardaşlarım sizlər hamınız Qəhrəmansınız, Əsl Azərbaycanlısınız. Sizlər bu Vətəni, Ordumuzu bu çətin günlərdə tək qoymadınız, Könüllü Əsgər oldunuz. Medalınız olmasa da olar. Canınız, sağ ömrünüz uzun olsun. Hər biriniz Qəhrəmansınız. Biz bu Vətən qarşısında öz borcumuzu ödədik! Azərbaycan Ordusu biz sizinlə qürur duyuruq! Hər kiçik şeylər bizim Ordumuza qarşı olan sevgi və hörmətimizə xələl gətirə bilməz! Biz hər zaman ORDUMUZLAYIQ!**

**Hafiz Əhmədov**

Abdulla ŞIXLİNSKİ,
Həkim-pisixiatr



# Koronavirus, vaksinasiya, immun pasportlar...

**Koronavirusla baglı bütün söhbətlərdə insanların söylədiyi birinci fikir aşağıdakıdır: "Mənim filan qohumum, filan qonşum, filan tanışım bu yaxınlarda koronavirusdan öldü". İnsanların bu fikrinə aydınlıq gətirmək vacibdir. Hal-hazırda insanlarda aşkar edilən, ikitərəfli, yüngül hallarda birtərəfli pnevmoniya ilə, yüksək hərarətlə, xəstənin ümumi vəziyyətinin kəskin pozulması ilə keçən, bəzi hallarda ölümlə nəticələnən, kifayət qədər geniş vüsət almış xəstəliyin "koronavirus" adını daşıyan mikrobioloji törədici ilə heç bir əlaqəsi yoxdur. Əhalinin düçar olduğu bu bəlanın adı belədir - "Ağciyərlərin toksiki(kimyəvi) pnevmoniyası".**

### *Dediklərimizin təsdiqi üçün*

SSRİ Müdafiə Nazirliyinin Mərkəzi Hərbi-Tibb idarəsinin 1983-cü ildə Moskvanın hərbi nəşriyyatı tərəfindən buraxılmış "Silahlı qüvvələrdə baş vermiş kəskin zəhərlənmələrin profilaktikası, diaqnostikası və müalicəsi" metodik göstərişinə baxmaq kifayətdir. Hal-hazırda dünya əhalisi arasında baş alıb gedən, bəzi hallarda insanların ölümünə səbəb olan, əhaliyə "koronovirus infeksiyası" adı ilə təqdim olunan, insanlar üçün sirlərlə dolu olan bu xəstəlik demək olar ki, planetin bütün nöqtələrində qlobal, infernal iqtisadi-siyasi qüvvələr tərəfindən əhali arasında yayılan kimyəvi silahdır. COVID-19 misligörünməmiş qəddarlıqla, insan hüquqlarının pozulması ilə, tam saxta statistika, yalan məlumatlar əsasında həyata keçirilən qlobal hərbi əməliyyatın - insanlığa qarşı olan hibrid müharibəsinin (3-cü dünya müharibəsinin) kodlaşdırılmış adıdır. Həqiqi mənada COVID-19-un bu məsələlərdə heç bir rolu yoxdur.

***Bir-neçə gün bundan əvvəl Polşa, Norveç, və bir sıra Avropa ölkələrinin hüquq mühafizə orqanları bu ölkələrin səmasında uçan, kimyəvi xəstəliktörədici maddələri (kimyəvi silah) bu ölkələrin səmasında yayan təyyarələri yerə endirmiş, təyyarələrdə olan maddənin məhz yuxarıda qeyd etdiyimiz toksiki pnevmoniyanın törədicisi olduğunu sübuta yetirmiş, pilotları həbs etmişlər. Pilotlar onları dindirən müstəntiqlərə bildirmişlər ki, toksiki pnevmoniya törədən kimyəvi maddələrin dünya səmasında yayılması əmrini Ümumdünya Səhiyyə təşkilatından almışlar. Həmin Ümumdünya Səhiyyə Təşkilatı artıq bir ildən çoxdur ki, yalnız qlobal transnasional kompaniyalar tərəfindən maliyyələşdirilir, məhz həmin kompaniyalar COVID-19 adı altında fəaliyyət göstərən bugünkü xüsusi əməliyyat tədbirlərini -insanları xəstəliklərdən qırıb tükətmək- həyata keçirərək, özləri də açıq etiraf edirlər ki, "3-cü dünya müharibəsi odlu silahla deyil, məhz bioloji, kimyəvi silahlarla reallaşacaq".***

### *Qlobal infernal qüvvələrin*

məşhur, hətta həddindən artıq məşhur bir nümayəndəsinin dediklərindən: "Əgər biz "yaxşı, bizim tələblərə cavab verən" vaksin hazırlaya bilsək, dünya əhalisinin sayını dəfələrlə azalda bilərik". Gördüyümüz kimi, bu adamlar dünya əhalisinin sayının azaldılması üzrə planlarını gizlətmirlər, nəinki gizlətmirlər, hətta bu planın artıq bəhrələr verdiyini, artıq reallaşdığını , işlədiyini bildirirlər. "LIVEJOURNAL" informasiya agentliyinin yalançı pandemiya haqqındakı məqaləsindən çıxarış:"Yalançı koronavirus pandemiyası insanları qlobal qüvvələr tərəfindən nəzarət altına alaraq əvvəlcə onları koronavirus adı ilə qorxudub vaksinasiyaya məcbur etmək, insanlara vaksin adı ilə real , dəhşətli xəstəlik törədicilərini yeritmək, bu vaksinasiyanı təkrari, məcburi şəkildə bir neçə dəfə insanların tam məhvinə, uşaqların isə tam sterilizasiyasına qədər aparmaq üçündür".

### *Koronavirus vaksini varmı?*

Ümumiyyətlə, vaksin hazırlamaq üçün nə qədər vaxt lazımdır? Təbabət elmi sübut edir ki, hətta ən müasir texnologiyaların-biotexnologiyalar, nanotexnologiyalar, kompyuter texnologiyaları-olduğu indiki dövrdə insan vaksini hazırlamaq üçün 25 il, veterenariya vaksinlərini hazırlamaq üçün 15 il vaxt lazımdır. Bu müddətin böyük bir hissəsi yalnız vaksinlərin təhlükəsizliyinin yoxlanılmasına gedir. Sual meydana çıxır - yalançı pandemiyanın elan olunmasından heç 1 il də keçməyib, bəs onda insanlara vaksin adı ilə təklif olunan o şübhəli maddələr nədir? Artıq sirr deyil ki, dünyanın ayrı-ayrı ölkələrində-Avropa, Rusiya,ABŞ, Argentina, Hindistan, Afrika - hər gün vaksin adı ilə insanlara vurulan şübhəli maddələrin təsirindən onlarla, yüzlərlə insanlar ölür, uşaqlar iflic olur.Lakin bütün bunlara baxmayaraq bütün dünyada "vaksin" adını daşıyan zəhərin təbliğatı gedir.

***Dünyanın bir çox ölkələrində dövlət məmurları and içirlər ki, onlar bu "gözəl" maddəni, nəinki özlərinə, hətta övladlarına da vurduracaqlar, ən maraqlısı odur ki, bir çox əvlək, intellektual səviyyəsi aşağı olan insanlar bütün bu oyunlara inanırlar.Ən maraqlısı odur ki, dünyanın ən mötəbər alimləri bildirirlər ki, koronavirus vaksininin hazırlanması prinsipcə mümkün deyil, virulentliyi 0-a bərabər olan törədiciyə qarşı vaksin hazırlamaq olmur.***

### *Nadan insanlar*

"Koronavirus" sözünə artıq ecazkar, hətta dəbdə olan bir məvhum kimi baxırlar, qlobal qüvvələr məhz insan kütləsinin intellektual-koqnitiv defektlərindən istifadə edərək, bu dəhşətli oyunu başlamışlar. Tez-tez insanlardan belə sözlər eşitmək olur: "Mən "Korona"ilə xəstələnmişdim". Sual olunur:"Sən haradan bildin ki, məhz bu xəstəliklə xəstə olmusan?" Gözlərini bərəldib təəccüblə ətrafa baxan məxluq cavab verir:"Ağciyərin kompyuter tomoqrafiya müayinəsini kecirən həkim belə dedi" Cavabın başqa variantı:"Test müsbət çıxdı". Belə məxluqların diqqətinə çatdirmaq vacibdir:1.İnfeksion xəstəliyin diaqnozu ancaq laborotoriya müayinəsi zamanı təsdiqlənə bilər. Əks təqdirdə heç bir infeksion xəstəlikdən söhbət gedə bilməz.Koronavirusu təsdiq edən laborator-diaqnostik müayinə metodu mövcud deyildir.(Mənbə:Akademik Filatov, professor Qundarov, mikrobioloq Yoxannidis, "infeksion xəstəliklər",dərslik)Kompüter tomoqrafiya müayinəsi aparan həkimin "koronavirus" diaqnozu qoymağa heç bir səlahiyyəti yoxdur. 2.Koronavirusu aşkar edən test mövcud deyildir-bu testlərin düzgünlük dərəcəsi 7faizdir, 93 faiz hallarda bu test səhv göstərir. Türkiyə alimləri qeyd edirlər ki, testlər yalnız elmi tədqiqatlar və eksperiment üçündür, diaqnoz qoymaq üçün deyil.

***Gördüyümüz kimi, koronavirus oyununda yalan yalanın üstündədir. Lakin insanlar bu bəzək-düzəkli, kütləvi informasiya vasitələrinin təqdim etdiyi yalana özlərinin doğum faktı kimi inanırlar.Dərin dövlətin üzvlərindən biri deyir:"İllər keçir, insanlar nadan olaraq qalırlar, onlar bahalı maşınlarda gəzir, təmtəraqlı evlərdə yaşayır, gözəl qadınlarla gün keçirir, biri-birlərini aldadaraq çoxlu pul qazanmağa cəhd edirlər.İnsanlar adi, şablon , rəngli görüntüləri qavramağa o qədər öyrəşmişlər ki, intellektual qüvvələrin gərginliyini tələb edən istənilən vəziyyətdə özlərini itirirlər, müasir insanlarda sistem təfəkkürü yoxdur, sistem təfəkkürü olmayan insanın isə yaşamağa haqqı yoxdur, 7 milyard dünya əhalisinin içərisində belə insanlar 5 milyard yarım təşkil edir, biz yalnız 1,5milyard-qızıl milyard saxlayacağıq, qalanı getməlidir.Onlar özləri özlərini məhv edəcəklər, bizə gərginləşmək lazım olmayacaqdır, biz onları maskada gəzməyə,bir-birindən 2m aralıda dayanmağa məcbur edəcəyik, canlarına ölüm xofunu salacağıq, sonra da vaksinasiya edəcəyik, təkrari vaksinasiyalar olacaqdır, məqsəd yalnız dünya elitasını saxlamaq, tör-töküntünü məhv etməkdir."-Sitatın sonu.***

### *"Koronavirus mistifikasiyadır,*

epidemiya, pandemiya heç vaxt olmamışdır, indi də yoxdur, bundan sonra da olmayacaqdır, lakin qlobal qüvvələr yaratdıqları mistifikasiyanı təsdiq etmək üçün bioloji və kimyəvi silahlardan istifadə edəcəklər, çoxlu insanlar qırıla bilər, insanlar 3-günlük zökəm törətməkdən başqa bir şey bacarmayan koronavirusdan yox, kimyəvi, bioloji silahdan öləcəklər." Professor Pavel Vorobyov-sitatın sonu.

Gələcəkdə baş verəcək pandemiyaların proqnozunu həkimlər deyil, məhz oliqarxlar və milyarderlər verirlər.Əlbəttə, ən yaxşı proqnozları onlardan başqa heç kim verə bilməz:özlərinin gələcəkdə edəcəkləri işlərə proqnoz verməyə nə var ki!!!

Epidemiya-ölkə əhalisinin 5% və ondan artıq miqdarda insanları xəstələndikdə elan olunur.Epidemiyanın kriteriləri:0pasienti, resipient, əhalinin 5% və ondan artıq hissəsi-dünyanın heç bir ölkəsində verilən təyinata uyğun olan vəziyyət olmamışdır, hətta yalançı statistik məlumatlar da-onkoloji, ürək-damar xəstəliklərindən,qocalıqdan, yol-nəqliyyat qəzalarından və bütün başqa xəstəliklərdən ölənlərin hamısına "koronavirus" diaqnozu yazılır-epidemiya kriterilərinin təmin olunmasına gətirib çıxarmadı. Pandemiya-istisnasız olaraq dünyanın bütün ölkələrində epidemiya olduqda elan olunur. Dünyanın heç bir ölkəsində epidemiya olmamışdır, indi də yoxdur. "Koronavirusdan" ölən insanların meyidləri yarılmır., çünki koronavirus ümumiyyətlə xəstəlik törətmir , kimyəvi silah tətbiqi nəticəsində yaranmış toksiki(kimyəvi) pnevmoniyadan ölmüş insanların meyidini yarıb ölümün səbəbini sübuta yetirmək heç kimə maraqlı deyildir.

***Hətta qısa müddətə maska taxan insanlarda çox asanlıqla istənilən ağciyər xəstəliyi, xüsusən də pnevmoniya çox asanlıqla inkişaf edir. Gördüyümüz kimi, "Bizi xəstəlikdən qorumaq" üçün olan tədbirlərin hamısı, əksinə, bizi öldürmək üçündür.***

### *Yalançı pandemiyanın*

çox vacib nyuansları haqqında 2020-ci ilin may ayında Rusiyanın keçmiş Səhiyyə Naziri Veronika Skvorsova cəsarətli, obyektiv məlumat vermişdi, bu məlumatdan da aydın olurdu ki, koronavirus pandemiyzsı yoxdur, bu böyük bir fırıldaqdır. SSSri Müdafiə Nazirliyinin Baş Kəşfiyyat idarəsinin istefada olan zabiti polkovnik Vladimir Vasilyeviç Kvaçkovun dediklərindən: "Bu əməliyyat dünya pərdəarxası-dib dövləti tərəfindən hazırlanmışdır, heç bir pandemiya yoxdur.Əməliyyat 3 mərhələdə keçəcıkdir: 1.Qərargah təlimləri-informasion müharibə, sizə daima deyəcəklər ki, xəstəlik dünyanı götürüb gedir. 2.Faktiki xəstəlik mərhələsi-birinci mərhələni təsdiq etmək üçün bioloji və kimyəvi silahın tətbiqi(poliseqmentar pnevmoniya, dadbilmə,iybilmə hissinin zəifləməsi, qanın biokimyəvi göstəricilərinin pozulması), 5G qüllələrinin işə salınması.5G tezlikli radiodalğalar immuniteti kəskin zəiflədir, pnevmoniyanın daha ağır keçməsinə səbəb olur.Bu mərhələdə qəddar karantinlərin tətbiqi dib dövlətinin əsas tələbidir. 3.Vaksinasiya və revaksinasiya(təkrari vaksinasiya) - dünya əhalisi sayının nəzərəçarpacaq dərəcədə azalmasını təmin etməlidir. 4.Sağ qalmış insanlara immun pasportların paylanılması. "-sitatın sonu.Gördüyümüz kimi Kvaçkov hər şeyi düzgün deyibmiş, onun dedikləri tam reallaşır. Rusiya Federasiyası Müdafiə Nazirinin məsləhətçisi, siyasətçi, texnika elmləri namizədi, baş elmi işçi Andrey Mixayloviç İlnitskiy dünyəvi dövlətin planları haqqında açıq danışır:"Onların birinci dərəcəli planı məhz keçmiş Sovetlər Birliyi ölkələrində olan əhalinin sayını azaltmaqdır, onlar heç bir şey qabağında dayanmayacaqlar, onlar çox güclüdürlər, onların emisarları hər yerdə vardır."-sitatın sonu.

### *Sonsuz maliyyə imkanları*

***qlobal qüvvələrə tamamilə cəzasız olaraq öz çirkin əməllərini həyata keçirməyə imkan verir, proses artıq yarıyoldadır, onu saxlamaq deyəsən mümkün olmayacaqdır. İmmun pasportlar bir neçə dəfə vaksinasiya olunmuşlara veriləcəkdir, bu, dünyanı nəzarətdə saxlamaq üsuludur, immun pasportu olmayan insanlar heç yerdə işləyə bilməyəcəklər,onların ölkədən çıxmaq, başqa ölkələri gəzmək, ictimai nəqliyyatdan istifadə etmək, uşaq baxçasına, məktəbə, ali məktəbə getmək, bankda hesab açmaq və başqa hüquqları olmayacaqdır. Bu əməliyyatın son nəticəsi elektron həbsxananın yaradılması və insanlar üzərində total nəzarətdir.***

Yalançı koronavirus pandemiyası Dünya bankının proqnozlarına görə ən azı 2025-ci ilə qədər davam etməlidir, Dünya bankı isə qlobal qüvvələrin bilavasitə tabeçiliyində olan beynəlxalq strukturdur (Eyni ilə Ümumdünya səhiyyə təşkilatı kimi).Bəs nəyə görə pandemiyanın proqnozunu Dünya Bankı verir?.Yoxsa Dünya bankinda işləyən insanlar həkimdirlər və ya bioloqdurlar???

Qeyd etmək vacibdir ki, Dünya Bankı pandemiya haqqında ayrıca sənəd qəbul etmişdir, bu sənəddə pandemiyanın necə gedəcəyi planı tam dəqiqliyi ilə təsvir olunmuşdur, bu sənədi diqqətlə oxuduqda bütün planetin indiki vəziyyətinin orada tam əks edildiyinin şahidi olmaq olar.Ən vacibi odur ki, bu sənəd heç də gizli deyil, açıq şəkildə bir sıra internet resurslarda qoyulmuşdur, istənilən insan bu sənədlə tanış ola bilər. Ümumiyyətlə, tam mistifikasiya xarakteri daşıyan koronavirus pandemiyasının bütün məqamları dünyanın demək olar ki bütün ölkələrində yaşayan adekvat və normal intekkektə malik insanlara artıq məlumdur. Yaxşı deyilib:"Hər bir gizli şey gec-tez üzə çıxır"

**Qeyd: Məqalədə olan bütün məlumatlar Avropa, Rusiya, Amerika Birləşmiş Ştatlarının tanınmış tibb alimləri, mikrobioloqları, bioloqları, həkim-infeksionistləri, politoloqları, hərbçiləri və hərbi həkimləri, tarixçiləri, ictimai xadimləri, iqtisadçıları, epidemioloqları tərəfindən həmin mütəxəssislərin öz saytlarında, müxtəlif mötəbər informasiya agentliklərində, mütəxəssislərin şəxsi canlı çıxışlarında qoyulmuş mənbələrdən, ayrı-ayrı vaxtlarda infeksion xəstəliklər və mikrobiologiya üzrə yazılmış dərsliklərdən, Sankt-Peterburq Hərbi-Tibb akademiyasının metodik vəsaitlərindən götürülmüşdür.**

# "Trampa bunu qadağan etməliyik"



***Trampın kəşfiyyat xidmətlərindən informasiya alışına qadağa qoymaq lazımdır.***

*Bunu ABŞ Nümayəndələr Palatasının Kəşfiyyat Komitəsinin sədri Adam Şif deyib.*

*Konqresmen ABŞ-ın dünyadakı tərəfdaşlarının əksəriyyətinin Tramp ucbatından kəşfiyyat məlumatlarını Vaşinqtona vermək istəmədiklərini deyib. O, prezidentin kəşfiyyat məlumatlarını siyasiləşdirərək ölkəni təhdid altında qoyduğunu söyləyib.*

*MEHRİBAN*

# Cəbhə boyu ərazilərdə partlamamış hərbi sursat aşkarlandı

**2021-ci ilin 15-17 yanvar tarixlərində Azərbaycan Respublikası Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə Ağdam, Ağcabədi, Cəbrayıl, Goranboy, Qubadlı, Zəngilan, Tərtər rayonları ərazisində mərmilərin aşkar olunması barədə Daxili İşlər Nazirliyinin "102" Xidməti-Zəng mərkəzi sistemindən 14 və Fövqəladə Hallar Nazirliyinin Böhran Vəziyyətlərində İdarəetmə mərkəzindən iki müraciət daxil olub.**

ANAMA-dan verilən məlumata görə, daxil olmuş 16 çağırış əsasında agentliyin xüsusi mobil çevik əməliyyat qrupları tərəfindən Daxili İşlər Nazirliyinin əməkdaşları ilə birlikdə 18 operativ və təxirəsalınmaz əməliyyat çıxışı həyata keçirilib.

Aparılan əməliyyat-axtarış tədbirləri zamanı 270 ədəd partlamamış hərbi sursat (PHS), 77 ədəd piyada əleyhinə mina, 12 ədəd tank əleyhinə mina, 1 ədəd təlim məqsədli minaatan mərmisi və 11 ədəd partlamış mərmi qalıqları aşkar olunub.

Aparılan əməliyyat-axtarış tədbirləri zamanı 9 855 411 kv.m (986 ha) ərazi, 116 km-dən çox yol mina və partlamamış hərbi sursatlardan təmizlənilib, 282 tikili yoxlanılıb. Agentliyin partlayış qrupu tərəfindən, 807 ədəd mina və 20 ədəd tank əleyhinə mina partladıcısı zərərsizləşdirilib, Mina Təhlükəsinə dair Maarifləndirmə üzrə mütəxəssislər tərəfindən 97 398 nəfər mülkü şəxs arasında mina təhlükəsizliyinə dair maarifləndirmə təbliğatı aparılıb.

**MEHRİBAN**



*Ramiz MƏMMƏDZADƏ*

# AĞDAMDA EVİMİZ

**Can Evimiz indi - 2021-ci ilin yanvarında sənə necə salam verim ki, salamımı alasan, sənə necə təsəlli verim ki, təskinlik tapasan, hardan başlayım, nədən başlayım ki, məni eşidəsən, üzümə baxasan, qollarını qaldırıb məni qucaqlayasan, kövrəlib ağlayasan, sənə baxıb mən də ağlayam... Hanı ağlamağa gözün varmı, qolların dibindən kəsilib, ayaqların vardımı, qapın, pəncərən, divarların elə bil ki, heç olmayıb, ağacların yeri də bilinmir, suyun quruyub, dəmir darvazan uçub gedib, yeri bilinməz olub...**

Cənnətlik Zəhra anam deyərdi ki, Ağdama geri dönəndə həyətimizin darvazasından evimizin pilləkənlərinədək (ən azı 30-40 metr var) dizin-dizin, sürünə-sürünə gedəcəyəm, bəlkə evim məni bağışlaya, onu qoruya bilmədik, fələyin badına getdi evimiz, qolları qırılsın ermənilərin, qapıları xaraba qalsın...

1989-cu ilin yay günləri düşür yadıma. Ağdama - evimizə getmişdim. Evimiz Ağdamın düz mərkəzində yaşayırdı.

İndi telegörüntülərdə murdar ermənilərin Afrikanın çəyirtkə sürüsü kimi altını-üstünü gəmirdiyi Ağdam Dövlət Dram Teatrının giriş qapısının üç oval şəkilli tağını görürük. Bax, həmin girişin tuşunda rayon partiya komitəsinin ikimərtəbəli köhnə binası yerləşirdi - Voroşilov küçəsi № 1-də. Bir az o yanda şəhərə bitişik Seyidli kəndinə tərəf gedən yolda - Voroşilov küçəsi № 9-da bizim həyətimiz, evimiz vardı. SSRİ dağılandan sonra küçəmizin adını ”Xudu Məmmədov” qoydular.

### *Ağdamın hər fəsli gözəldi*

***Yay ayları da öz yerində, bazar-dükan aşıb-daşardı, mer-meyvəsini, bostan-tərəvəzini yığıb yığışdırmaq çətin məsələydi. Nə isə...***

***Hə, Ağdamdaydım - evimizdə. Qardaşım Fuad mamamızdan (anama ”mama” deyirdik) giley-güzar eylədi. Dedi ki, sən mamaya deginən qoy icazə versin bu evə bir balaca əl gəzdirim, istəyirəm şüşəbəndi bir az genişləndirim, qabağa çəkim, bu zirzəmini heç olmasa iki bəlağzı aşağı saldırım, içəri girəndə qəddimizi əyməyək, mamam qoymur ki, qoymur.***

Anamdan soruşdum ki, niyə icazə vermirsən, Fuad şüşəbəndi, zirzəmini düzəltdirsin, genişləndirsin?

Zəhra anam üzünü yuxarı tərəfə - dağlara tərəf tutub qollarını göyə qaldırdı:

**- Mən nə deyirəm ki, dədənizin tikdirdiyi evdi, istəyirsiniz söküb yenidən tikin. Amma qoy o qırılmışlarla qurtaraq sonra, yuxarı tərəfdən arxayın olaq, sonra necə istəyirsiniz eyləyin, nə deyirəm ki...**

Mən gülə-gülə dillənSdim: - yəni deyirsən ki, ermənilər Ağdama gələ bilərlər?

Anam sözümü kəsdi:

**- Yox, demirəm ki, ermənilər Ağdama gələcəklər, Allah vurmuşdu onları, amma yenə də arxayınçılıq olsun, sonra...**

Ah, yazıq anam, müdrik anam, birinci sinifə belə getməyən bilikli anam, ruhun sevinsin indi Ağdama, evimizə, küçəmizə qayıdırıq.... Birmərtəbəli, kürsülü, üçgözlü ata evimizin həlak olduğu dəqiq tarix yadımdadır - 16 yanvar 1993-cü il. Şeytan erməni sürüsünün Ağdama soxulmasına hələ yeddi ay vardı...

O vaxtlar Ağdam rayon prokuroru işləyən Zahid Tağıyev dedi bu tarixi mənə. Düşmənin qradı düz gəlib yenidən qurmaq istədiyimiz şüşəbəndin başına düşmüşdü.

Balaca qızım Firuzə ilə yaxınlaşıb evimizlə vidalaşdıq. Firuzə süpürgə götürüb ağlaya-ağlaya həyəti süpürəndə süpürgəni onun əlindən alıb kənara tulladım.

### *Taxtapuşunun dəmirləri*

***qonşu qiyaslı Şahmarın damına tökülmüş, ağacların budaqlarından sallanmış yaralı evimizə baxmaq dəhşət idi... Onu belə gündə görüncə xəcalət çəkdim. Canım evimiz, səni də, qohum-qonşunu da qoruya bilmədik, bizləri qəti bağışlama, otuz illik zillət bəs eyləyər daha...***

O günü - 23 noyabr 2020-ci ildə cəngavər Prezidentimiz İlham Əliyev və fəxrimiz, vüqarımız Mehriban xanım yaralanmış, təhqir edilmiş, yazıq günə qalmış Ağdam Cümə məscidini ziyarət edəndə baxıb ağladım, elə bil yuxu görürdüm, möcüzəyə düşmüşdüm nəydi...

Ali Baş Komandanımız məscidin rəngi qaçmış həyətində haqsızlığa, zülmə qarşı üsyan edirdi, erməni eybəcərliklərini, onların faşist xislətini faktlarla ayaqlar altına çırpırdı. Qalib bir millətin zəfər himnini ucadan oxuyurdu... Haqqın, ədalətin təntənəsini bütün planetə bəyan edirdi...

Mən ağlayırdım, əfsanəvi qələbə həyəcanından, torpaq, yurd-yuva həsrətinin yanğısından od almışdı məni. Qüdrətli Prezidentimiz, istəkli Birinci Xanımımızla birlikdə çöhrəsi solmuş, rəngi qaçmış, pis günlərə qalmış Ağdam Cümə məscidinə Məkkədən gətirdiyi müqəddəs ”Qurani-Kərim” kitabını bağışlayanda gözümdən od parladı, elə bil nağıllara düşmüşdüm, yuxu görürdüm...

### *Bu qədim Ağdam Cümə məscidi*

***mənə necə deyərlər, bir köynək yaxın idi, doğma idi. Babam molla Mürşüd Məşədi İsfəndiyar oğlu Cəfərov keçən əsrin 50-ci illərində bu məscidin sədri olmuşdu.***

***Məscid oxuduğum 1 nömrəli oğlan orta məktəbə gedən yolun üstə idi.***

***Qeyd: O vaxtlar biz qızlarla birlikdə oxumurduq. 1954-55-ci dərs ilinədən oğlanlarla qızlar bir yerdə oxumağa başladılar.***

O illərdə, yəni XX əsrin əllinci illərində (dəqiq tarixi yadımda deyil) eşitdim ki, Bakıdan məscidlərin böyüyü gəlib.

Bakıdan gəlmiş qonağın - yəni şeyxülislamın şərəfinə açılmış məclisdə mən də vardım, süfrəyə qulluq edirdim.

Babamgilin həyətində qoşa tut ağacının kölgəsindəki çəmənlikdə xalçalar salınmışdı, döşəkçələr, mütəkkələr də öz yerində..

Mən süfrəyə qədim və yaraşıqlı bulud qablarda plov daşıyırdım. Birdən o vaxtın diliylə desək, məscidlərin böyüyü əlini mənə tərəf uzadıb babamdan soruşdu:

**- Mürşüd kişi, bu uşaq kimdir belə?**

Mürşüd babam dərhal cavab verdi:

**- Nəvəmdir, adı Ramizdir, İbrahim əfəndi.**

Şeyxülislam məni yanına çağırıb soruşdu:

**- Necədə oxuyursan, necə oxuyursan?**

**- Əlaçıyam, beşinci sinifdə oxuyuram.** - dedim.

**- Biz indi hardan biləк ki, sən əlaçısan? -** deyə İbrahim Əfəndi soruşdu.

Mən bir söz demədən babamgilin həyətindən qaça-qaça Voroşilov adına küçəyə - öz evimizə gəldim. Kamodun gözündə saxladığım ”Azərbaycan pioneri” qəzetini götürüb geri qayıtdım.

Qəzetin birinci səhifəsində boynumda pioner qalstuku olan böyük şəklim verilmişdi. Şəklin altında yazılmışdı: ”Ağdam şəhər 1 nömrəli oğlan orta məktəbinin əlaçı şagirdi Ramiz Məmmədov” (onda familyam ”Məmmədov” idi)..

Şeyxülislam qəzeti alıb diqqətlə baxdı - Ay maşallah, Mürşüd kişi nə yaxşı nəvən var. Sən əlaçısan, mən də sənə əla bir saat bağışlayacağam. - dedi İbrahim Əfəndi.

Sonra qolundan açıb döşəkçənin üstə qoyduğu qızıl bilərzikli par-par yanan qızıl saatını mənə uzatdı.

Mən özümü itirdim və tez də ələ aldım.

**- İbrahim Əfəndi - dedim - Çox sağ olun, amma bu saat mənim qoluma böyükdür. Mən orta məktəbi bitirib gələrəm Bakıya, instituta girərəm, bax, onda ”12 rəqəmi” qırmızı yazılmış ”Pobeda” saatı bağışlayarsınız mənə. Babam məni müdafiə etdi, razılaşdıq.**

İndi o günlərdən ən azı 70 il sonra müstəqil vətənimizin qalib Prezidenti cənab İlham Əliyev ayaqqabısını soyunub Birinci Xanımla birlikdə əlində ”Qurani - Kərim” kitabı Cümə məscidinə daxil olduqda hönkürtü aldı məni...

Cənab Prezidentimizin məscidin həyətindəki bəyanatı isə bütün dünya ermənilərinə, erməni faşizmini dəstəkləyənlərə, ermənipərəst siyasət xadimlərinə, cahil elm-sənət nümayəndələrinə, makronlara, Jirinovski kimi simasız dilitentlara, bir sözlə puç və yalan ideoloji cəbhədəki kəslərin hamısına qarşı haqq-ədalət təntənəsinin əks-sədası idi, XXİ əsrdə məğlub olmuş şərəfsiz və əxlaqsız bir millətə qarşı çağrış idi.

Ötən əsrin 30-cu illərində tikilmiş üçgözlü kürsülü evmizdə atam Yaqub ürəkdolusu yaşaya bilmədi. Hitler müharibəsi onu bu evdən alıb apardı, qəbri Rusiyanın Oryol Vilayətinin ucqar Doljenski rayonunun soyuq çöllərindədir. Həlak olanda (18 fevral 1943-cü il) 34 yaşındaydı, hərbi vəzifəsi vardı: 74-cü atıcı alayın siyasi hissə üzrə komandir müavini, leytenant rütbəsi daşıyırdı (Bax: Azərbaycan Respublikasının Xatirə Kitabı. Bakı-2010, 10-cu cild, səh. 264).

Yüz təəssüf, min təəssüf ki, hələ də atam Yaqubun məzarını ziyarət edə bilməmişəm. Atam getdi, qayıtmadı, amma onun tikdirdiyi ev yaşayırdı, ömür edirdi və bu evin çırağı sönmürdü, qonaq-qarası olmurdu, bu evə gəlin gəldi, bu evdən gəlin köçdü, bu ev nənə oldu, bu ev baba oldu, nəvələr doluşdu həyət həyət-baxçasına, qanadlanıb yüksələn qəhqəhələr bürüdü aləmi, bu evdə bir ana, dörd uşaq - bir qız, üç oğlan yaşadı, boy atdı...

Anama yazdığım bir şerdə demişdim:

*İyirmi iki yaşından*
*Dörd kiçik əsgərlə*
*Döyüşə hazır...*
*Hər hücuma müntəzir...*

Həyətimiz çox böyük olduğundan çəpərləməyə gücümüz çatmırdı, ən azı 4-5 araba çəpər kolu lazım idi. Həyətimizin bəzi yerlərini qonşularımız yolaq eləmişdi.

Sonrakı illərdə həyətimizin bir hissəsini ”aptek Tələt” kimi tanınmış Tələt Əliyevə, kişik bir parçasını isə Qiyaslı kəndindən olan Şahmar kişiyə verdik. Hər iki ailə ilə mehriban qonşuluq ünsiyyəti yarandı.

Ümumiyyətlə qonşularımızın əvəzi yox idi. Südabə xala, Nübar xala, Qələm xala, Tovuz xala, Raya xala, Kifayət xala... bir-birindən istiqanlı, şirindil, qayğıkeş adamlardı. Orası da qəribə idi ki, bizdən başqa qonşuların hamısının evində kişi var idi...

***Mən küçəmiz barədə, ordakı adamlar haqqında 5-10 il qabaq doğma ”525-ci qəzet”də yazmışdım. Necə də mehriban qonşularımız vardı. Ruhları şad olar, yəqin.***

### *O günlərdən kiçik bir misal*

Bir gün axşamdan xeyli keçmiş Şəkidən qonağımız gəldi. Anam dərhal Tovuz xalagilin çəpərinə yaxınlaşıb ”Tovuz, ay Tovuz!” - deyə onu çağırdı.

Tovuz xala çəpərin başına yaxınlaşıb dedi: - Nə var, ay Zəhra?

Anam qayıtdı ki, Şəkidən qonaqlar gəlib, o hindüşkalardan 1-2 dənə kəs, ötür bəri.

**- Qonaqlar xoş gəlib. Bu saat ay Zəhra!** - dedi Tovuz xala.

”Kəs, ötür bəri” - o deməк idi ki, yəni təmizlənmiş, yuyulmuş olsun ha hinduşkalar.

Sayad nənəm vəfat eyləyəndə qohum-qonşu elə tökülüb gəldi ki, yas yiyəsinə bir iş qalmadı. Yas çadırı quruldu, stol-stul, qab-qacaq qonşulardan dəstə-dəstə gəldi, teşt-teşt təndir çörəyi, kisə-kisə kartof-soğan, ət, yağ və s. də öz yerində.

Bax, beləcə yaşamışıq Ağdamda, Yasımız, toyumuz bir, dərdimiz-odumuz bir.

***Zəhra anam uzun müddət heç harda işləməmişdi....***

***Harda işləyəydi, nə işləyəydi ki?.. Onun işi 22 yaşından bizləri - dörd balanı böyütmək olmuşdu, pisyaxşı... heç kəsə əl açmadan. Amma evlər yaraşığı olan qədim xalımızın necə deyərlər, su qiymətinə satılması əhvalatı yadıma düşəndə - elə indi də təpəmin ortası tüstülənir...***

Səhv etmirəmsə, ötən əsrin 60-70-ci illərində anama qohumluğu çatan uşaq baxçasının müdiri, rəhmətlik Zivər xanım anamı baxçaya aşbaz işinə götürmüşdü.

Hələ o ağır illərdə tanış-bilişlərdən kimlərsə anama məsləhət də vermək istəmişdilər:

”Cavan gəlinsən, nə oturmusan dörd uşaqla evdə, kimi, nəyi gözləyirsən, qara kağız almısan, uşaqları ver ”detdoma”, çıx get ərə...”

Belə məsləhətçilərdən biri də Tamaşa arvad idi ki, anam onu həyətimizdən qovmuşdu... Anam belə kəslərə qəti və kəskin cavab vermişdi:

**- Bəsdirin siz Allah! Mən Yaqubun balalarını yetimxanaya qoya bilmərəm. Yaqibdan sonra nə ər? Allah vurmuşdu o əri..**

### *Bu sətirləri əzab içində yaza-yaza*

tanıdığım bir qələm adamının valideyini barədə utanmadan yazdıqları yadıma düşür. O adam qəzetlərin birində yazmışdı ki, mənim atam anamın ikinci əri idi. Atam getdi əsgərliyə, qayıtmadı, anam üçüncü dəfə ərə getdi...

Elə bil anası üç dəfə ”Şərəf nişanı” ordeni alıb...

***Evimizin sirri-söhbəti, sevinci də, kədəri də bizimlə idi. Sevinci, xoş ovqatı çəpər aşıb qonşulara yayılardı, kədəri qanad açmazdı, elə özündə qalardı... Amma qapıları qonaqqaraya həmişə açıqdı.***

Xalq artisti, bəstəkar Ramiz Mustafayev, Xalq şairi Nəriman Həsənzadə, Ümumittifaq Lenin komsomolu mükafatı laureatı, şair Davud Nəsib, sanballı ədəbiyyat alimi Rəhim Əliyev anamın qonağı olmuşdular.

Həmin məclisdən bir az sonra qardaşım Fuadın oğlu oldu, anam uşağın adını Nəriman Həsənzadənin şərəfinə ”Nəriman” qoydu. Yeri gəlmişkən deyim ki, indi həmin Nəriman Məmmədzadə Rəssamlıq Akademiyasını bitirib, tanınmış rəssam-dizaynerdir.

### *Anam danışırdı ki,*

***bir may günü həyətdə sac asıb kətə (göyərti qutabı) bişirirdim, darvazamızın zəngi çalındı. Gedib açdım. Kimi görsəm yaxşıdı? Dostun Məmməd Aslanı, çantası da çiynində. İçəri dəvət elədim, elə ocağın qırağındaca oturtdum onu. Dedim ay Məmməd, bu kətələrdən doyunca yeməlisən, Ramizin əvəzinə də. Xəmiri dəmyə buğdadandır, göyərtisi çöl pencəridir, yağı da nehrə yağı. Yağladım kətələri, verdim yedi. Sonra dedi ki, bəsdir, ay Zəhra xala, ta yerim yoxdur...***

Gedəndə də bir dəstə kətəni dəsmala büküb qoydum çantasına.

Sonralar Məmməd Aslan anamın adına bir şeir həsr etmişdi, qızları Zəhra ana kimi kətə bişirməyi öyrənməyə çağırmışdı.

Şərəfinə Beynəlxalq Ədəbi mükafat təsis edilmiş şair Şahmar Əkbərzadə, Əməkdar incəsənət xadimi, şair Çingiz Əlioğlu, Əməkdar mədəniyyət işçisi, yazıçı-publisist Mustafa Çəmənli, şair-filosof Əhməd Elburus, şair-publisist Məmməd Murad bizim evin əziz qonaqları olmuşlar.

Ağdamdakı evimiz bizim arxamız, dayağımız idi. Bu ev şüşəbənd gözləriIə, qara-boz çay daşlarından hörülmüş qollarıyla, dəmir taxtapuşuyla, dualı qapılarıyla yayda, qışda - bütün fəsillərdə bizi qoruyar, bizə analıq, nənəlik edərdi...

Amma biz onu qoruya bilmədik, düzü heç qorumadıq da... Vəfasız çıxdıq, canımızı götürüb qaçdıq, onu özümüzlə apara bilmədik... Kimin əlindən, nəyin qorxusundan? Prezidentimizin ən yaramaz, murdar, şərəfsiz və qorxaq adlandırdığı bu donuz sürüsünün - ermələrin əlindən.

Yox, həm də həlak olduq, qırıldıq da... Tək Ağdam ətrafında gedən döyüşlərdə 6 mindən çox ağdamlı həlak oldu, yüzlərlə adam yaralandı...

Əslində sən demə, bu cındır düşmənimiz yer üzünün ən xain, ən yaltaq, ən gücsüz məxluqları imiş.

”Qonşu” sözü bizlərdə təbəssümlə, rəğbətlə qarşılanan ifadədir. Biz Haystanla qonşu deyilik, heç qonşuluq da eləmirik. Biz - Azərbaycan o yaramaz idbarlarla həmsərhəddik, qonşu deyilik! Biz az həssas və diqqətli olaq!

### *Ali Baş Komandanımız*

***cənab İlham Əliyevin misilsiz hərbi və diplomatik hünəri, Azərbaycan əsgərinin Vətən, torpaq məhəbbəti, Qarabağ sevdası sayəsində biz tarixi qələbə çaldıq, qırdıq Ermənistan deyilən bu yerin onurğa sütununu, haylar barədə şişirdilmiş puç uydurmaların sonuna çıxdıq.***

Bəşəriyyətin insanabənzər canlılarına qarşımızda diz çökdürdük! Torpağımızın qırışığı açıldı, dağlarımızın üzü güldü, çaylarımız bizə tərəf axdı, bulaqlarımız qanım-qanım qaynadı, göylərimiz ulduz-ulduz çoxaldı... bütün Qarabağ, anamız Azərbaycan naxışları pozulmaz əbədi bir bahara qovuşdu...

İndi mən gələcək günlərimiz barədə düşünürəm. Ömrün qalan payını harda yaşamalı, necə yaşamalı? 80 yaşı keçmişəm, yəqin ki, Kürqırağı meşələrdə mənim yaşımda ağac çətin tapılar... Gələcəkdə tərəqqisinə böyük ümidlər bəslədiyimiz Qarabağ bizim yolumuza göz dikib, hay-harayımızı gözləyir. Mən Ağdama - evimizə sonsuz istəklərlə dönmək arzusundayam. Və inanıram ki, müvafiq icra strukturları da, ”Qarabağ Dirçəliş Fondu”da mənə dəstək olacaqlar.

Ağdamda cəmi 58 il yaşaya bilmiş evimiz barədə hələlik bu qədər.

Bu yazını gənc qələm sahibi, hörmətli Reyhan xanım Kənanın məni titrədən aşağıdakı misraları ilə bitirmək qərarına gəldim:

***Kim hansı yaşında çıxıb gedibsə,***
***Elə həmin yaşda dönəcək geri...***

**Şüvəlan,**
**10 yanvar, 2021-ci il**

---

**Qulu MƏHƏRRƏMLİ**
**professor**

# MƏNƏVİYYAT ADAMININ DOĞUM GÜNÜNƏ



*Bu gün professor Yalçın Əlizadənin doğum gunudur. Uzun illər Jurnalistika fakultəsinin (BDU) dekanı və kafedra mudiri olub. çoxlarından fərqi odur ki, əxlaq və mənəviyyat adamıdır, ustad qələm sahibi, radio yaradıcılığının ən gözəl tədqiqatçısı, əsl alim və klassik pedaqoqdur. Tələbkarlığı, zəhmliliyi ilə xeyirxahlığı həmişə yanaşı olub. Onu mənə ən çox*



*sevdirən daim şəxsi ləyaqət hissini qoruması, prinsipiallığı və parlaq şəxsiyyətidir.*

*Böyur-başımızda yaltaqlığın tuğyan etdiyi, elmi dərəcə, şöhrət, orden-medal, mövqe möhkəmləndirmək uçun qələmə sarılıb vəzifə adamlarına saxta mədhiyyələr yazan əldəqayırma professorların çoxaldığı bir vaxtda Yalçın muəllim həmişə ziyalı qururunu saxıayıb. Ondan tərif umsalar da Yalçın muəllim oğurluq, ruşvət, korrupsiya hesabına pul və sərvət qazananlara "dövlət adamı" deməyib. Yalnız gerçəyi, doğru olanı deyib və yazıb. Əslində butun ömrunu namusla yaşayan nəcabətli insanlar başqa cur də ola bilmir.*

*Yalçın muəllim umumən ali məktəb tədrisinin, o cumlədən jurnalistika təhsilinin gözəl bilicisi və bacarıqlı təşkilatçıdır.*

*Vaxtilə ölkənin tanınmış alimlərini və praktik media adamlarını jurnalistika fakultəsində dərs deməyə cəlb etməklə tələbələrdə fərqli maraq yarada bilirdi.*

*Məni də əvvəlcə saathesabı dərs deməyə, sonra isə ştata Yalçın muəllim dəvət etmişdi. 1998-ci ildə mənim ştatla muəllimliyə könlumun olmadığını görəndə o vaxt rektoru əvəz edən böyuk alim və qiymətli insan kimi tanıdığım akademik Bəhram Əsgərovu da işə qoşmuşdu...*

*Professor Yalçın Əlizadə o adamdır ki, indiki mənəviyyat böhranı şəraitində insanın şəxsiyyət və ləyaqətinin hər cur vəzifədən yuksək olduğunu dəfələrlə numayiş etdirib. Həmişə ictimai əxlaqı ustun tutub, əyilməyə alışmış sumuksuz və onurğasız "ziyalılar"dan fərqli olaraq bu əxlaqa uyğun gəlməyən hər hansı davranışa sərt şəkildə "yox" deyə bilib.*

*O, vəzifə və mənsəb xatirinə haqsızlığın, kobudluğun, ədəbsizliyin qarşısında susmayıb. O səbəbdən ki, heç kimin qarşısında gözukölgəli olmayıb. Bir neçə il əvvəl BDU-da önəmli yubiley toplantısında Yalçın muəllimin çox ağayana və ləyaqətli davranışının şahidi oldum və onunla mənəvo bağlılığıma görə çox sevindim. Həmin toplantıda çıxış edərkən rektorun yekəxana və kobud iradını Yalçın muəllim qəbul etmədi. Nəzakətlə, təmkinini pozmadan həmin anda acı yumorla rektorun cavabını verdi. Ertəsi gun isə onun ərizə yazaraq dekanlıqdan və kafedra mudiri vəzifəsindən imtina etməsi xəbəri butun universitetə yayıldı. Onu dilə tutmağın xeyri olmamışdı-adam vəzifəni yox, QÜRURU və şəxsi LƏYAQƏTİ seçmişdi. çoxlarına başa salmışdı ki, insan uçun vəzifə deyil, LƏYAQƏT, ŞƏXSİYYƏT və MƏNLİK hissi önəmlidir.*

*Professorun bu qururlu addımı ilə təəssuf ki, fakultənin tarixində ciddi bir mərhələ bitmiş oldu. Bundan sonra diletantlara və mənəviyyat dəllallarına yol açıldı, fakultənin nizamı da xeyli pozuldu.. Yaxşı ki indi vəziyyət dəyişir, çunki yenə də sukan arxasında Yalçın muəllimin əlindən su içənlərdir!*

*Doğum gununuz mubarəkdir, Yalçın müəllim! Televiziya və radio yaradıcılığının inkişafı, media sahəsi, jurnalistika elmi, jurnalistika təhsili uçun gorduyunuz böyuk işlər heç vaxt unudulmayacaq... Bir də jurnalist uçun vacib olan mənəvi keyfiyyətlər-şərə muqavimət, ruhun diriliyi və əxlaqi butövluk sahəsində şəxsi numunəniz həmişə yaddaşlarda qalacaq!*

---

**İlqar Əlfioğlu**

# Kəllə-paça əməliyyatı



**Söhbət yeməkdən düşmüşkən...**

**Bir dəfə Türkiyədə burdan qaçaq düşmüş bir dostumun yanında idim. Günlərin birində mənə dedi ki, İlqar, bilirsən nə istəyirəm, ata-baba kəllə-paçası... Dedim ki, asan şeydi, niyə bişirmirsən? Cavabı belə oldu: Kəllə tapa bilmirəm... Dedim, mən taparam.**

**Şənbə günü maşınını götürüb, çıxdım kəllə ovuna. Hansı ət dükanına girdimsə, gördüm ki, qoyun kəlləsini soyublar avaralar. Əlim hər yandan üzüləndə, Beşikdaşdakı bir qoca qəssabdan soruşdum ki, sizdə qoyunu harda kəsirlər. Dedi ki, hazır gəlir. Soruşdum: dərisi üstündə olan kəlləni, paçanı hardan tapa bilərəm, dedi, Böyük Çəkməcədən. Dalınca da, niyə istədiyimlə maraqlandı, dedim, azəri kəllə-paçası bişirəcəm. Yazıq kişinin üzü güldü, qayıtdı ki, mən ondan yeməmişəm, amma babam deyərdi ki, ləzzətlidi... Kişiyə söz verdim ki, tapsam, bir pay da, sənə gətirərəm.**

**Nə isə, maşına minib, birbaş üz qoydum Böyük Çəkməcəyə. Soraqlaşa-soraqlaşa, qəssabların yerini tapdım. Nəyə gəldiyimi biləndə, təəccübləndilər, amma, kəllənin yerini göstərdilər. Dağ boyda qalaqlamışdılar - kəllə bir yanda, paçalar bir yanda. Heyvanlar itquyruq idi, amma nə çarə - iki dənə yağlı qoyun başı, dord cüt də, iri paça seçdim. Hesabını verib, qayıtdım evə. Dostum mala baxan kimi, gözləri işıldadı.**

**Axşam düşürdü artıq, səhərə hazırlamalıydım. Təsəvvür edin ki, Orta Köydə, milyonçular məhəlləsində, manqalı həyətin ortasına çəkib, düz villaların arasında kəllə ütməyə başladım, tüstu-duman aləmi basdı. Qonşularımız bəlkə də elə bildi ki, İran, ya da, rus qaz bombası atıb İstanbula. Yazıqlar nə bilsinlər kəllə ütəndə, nə mərəkə olur...**

**Bir sözlə, onlar duyuq düsənə kimi işimi bitirdim, qaqauz qulluqçudan bağçadakı suyun yerini soruşdüm, o da göstərdi...**

**Bir saata gül kimi elədim. Qazan istədim, ən iri qazanları iki litrlik çıxdı, kəllə cəhənnəm, heç paça yerləşməzdi içinə. Dedim ki, bilmirəm, azı iyirmi litrlik qazan gətirin mənə!**

**Yazıq dostum da, maşına minib, düzəldi yola, qayıdanda, maşının baqaj yerindən iri qazan düşürdü - köhnə qazan idi, hansı restorandan gətirdiyini bilmədim, amma əsl məndeyəndən idi...**

**Evə iy dolmasın deyə, həyətin bir küncündə manqala qoyub, qaqauza tapşırdım, yazıq səhərə kimi, oyaq qaldı...**

**Səhər saat səkkizdə dostumun qapısını təpiyimlə döydüm, yerindən dik atıldı. Sən demə, kəllə-paçanın tək dadını yox, tezdən yeyildiyini də unutmuşdu yazıq...**

**Özüm elə ürəklə yemədim, amma dostum əsl Ağdam başəlayağının dadını birdəfəlik unutmuşdu deyə, beş barmağının beşini də yaladı...**

***P.S.* *Günorta bir xırda qazan da, Beşikdaşdakı qoca qəssaba apardım. Kişi gələcəyimi gözləmirdi...***



KAMALƏ ABİYEVA

# MÜQƏDDƏS MUZEYƏ ÇEVİRMƏDİYİMİZ GƏMİLƏR

**Vətən sevgisi sözə gəlməz. "Sevirəm" kəlməsi ilə ifadə olunmaz. Vətən ağrısını yaşamaq qədər çətin heç bir duyğu olmaz. Vətənə "Dərdinə şərikəm" təsəllisi yersiz olar.**

*Vətən sevgisindən baş açmazsan...*
*Doymazsan bu sevgidən...*
*Həsrətim bircə damcı azalardı,*
*həsrətim bircə damcı az olardı,*
*bircə damcı doya bilsəydim səndən, Vətən.*

Ötən əsrin 80-ci illərində yamışam bu şeiri. Torpağımı sevirəm. Araz içimi yandırıb,Təbriz gözümün nisgili, İrəvan, Zəngəzur, Vedibasar başımın ağrısı,...olub. Bəzən bir küçəyə, bir ağaca illərin həsrətlisi kimi baxıb ağlamışam. Mənim də çətinliklərim olub və var. Haqsızlıqlarla üzləşirəm hələ də. Amma heç vaxt başqa bir ölkədə yaşamaq ağlımdan keçməyib. Mənim üçün mümkünsüzdü. Yəqin Vətəni sevənlər hamısı belədi.

Vətəni qoruyanlar, ölümə gedənlər onlardı.

1988 - ci il hadisələrində onları gördüm. Azərbaycanı uğruna ölümə hazır olanları gördüm. Hamısının üzündə, gözündə "Vətən azadlığı" həsrəti vardı.

### *20 yanvar təsadüf deyildi ki...*

***İllərlə Azərbaycan bütövlüyü daşıyan insanlar meydanlarda, küçələrdə idi. Güclü SSRİ xalqın iradəsi önündə aciz qalmışdı. Xalqın mübarizə əzmini qırmalı idi.***

***1990- cı ilin yanvarı... İndi də varlığımdan bir ağrı keçir. Şəhərin müxtəlif yerlərində toplaşırdı minlərlə insan. "Ordu şəhərə hücum edəcək" ifadəsi dolaşırdı. Şaiə kimi baxanlar, inanmayanlar, inananlar da vardı... Hamı bir - birini inandırmağa çalışır, hamı bir - birinə inanır, hamı bir - birinin əlindən tuturdu...***

19-u gecə də belə idi. "Qurd qapısı", "Salyanski kazarma", "Qızıl Ordu" deyilən yerlərdə toplananlar çoxdu. Mən də fırfıra kimi dolanırdım. İnsanlar axınla gəlib-gedirdi, yüzlərlə adam gecələyirdi. Bir uşaqlıq rəfiqəm var Nüşabə Bədəlzadə. Mübariz xanımdı. Həmin gecə indiki 20 yanvar meydanında onunla rastlaşdıq. Bir-birimizə sarılıb ağladıq. Əslində hamı bir-birinə sarılır, gülüb-ağlayırdı o günlərdə.

"Dağılın, evlərinizə gedin. Ordu gələcək, atəş açacaq" kimi çağırışlara qulaq verən çox az idi. Hamı Azərbaycanı düşünürdü. Paralanmış Vətənin cənub, qərb ağrıları ilə yaşayan, sərhəd məftillərini sökən xalq güllə qabağında dayanmağa hazır idi.

Və tanklar şəhərə girdi. Paytaxtımıza - göz bəbəyimizə xəyanət etdilər. Vətən dediyimiz, Ana dediyimiz dövlət bizi ölümə məhkum etmişdi. Heykəl ucaltdığımız, gücünə - qüdrətinə şeirlər yazdığımız "Qızıl Ordu"nun tankları üstümüzə yeridi. Dəhşət idi. Şəhərin səhəri daha dəhşətli idi...

Qanlı yanvar gecəsi, o dövrün hadisələri haqqında çox yazılıb.

19-da tankların qabağına çıxmağa hazır olan əliyalın insanlar hələ də gözümün qarşısındadı. Tankların, yan - yörəmdən uçan güllələrin səsi hələ də qulağımda.

Bir də fit səslərini unutmuram. Dənizdəki mülkü gəmilərin fit səslərini.

Dünya ilə əlaqə kəsilmişdi. Dənizçilər şəhərdəki qırğına, bu qırğının qurbanlarının dənizə töküləcəyinə etiraz olaraq haray salırdı. Gəmilərin ötürdüyü SOS siqnalları ilə dünya başımıza gələnlərdən xəbər tuturdu. Xəzər Dəniz Donanmasının dənizçiləri bütün təhdidlərə, təhlükələrə baxmayaraq şəhəri qoruyurdu.

Yasamalda 5-ci mərtəbədəydi mənzilim. İndiki kimi yerli-yersiz tikilən hündür binalar yoxdu onda. Pəncərəmdən dəniz görünürdü. Hər gün, hər gecə bu gəmilərin səslərinə qarışırdım. Fit səslərini eşitməyəndə də, eşidəndə də dəhşət basırdı adamı. Ölüm dəhşəti. Başını divara çırpmaq istəyirdin. Cürbəcür fikirlər dolaşırdı şəhərdə: Dənizçilərə işgəncə verirlər...Beşini öldürüblər...10 nəfəri dənizə atıblar... Güllələyiblər...

### *Həqiqəti bilən yoxdu...*

Sadəcə ah-nalə, göz yaşları Xəzərə qarışırdı. Xəzər Bakının gözündə donub qalan göz yaşına oxşayırdı...Ya mənə elə gəlirdi. Çox sevdiyim Xəzərə baxmaqdan qorxurdum. "Dənizçilərimizi neynədin, Xəzər" deyə pıçıldayırdım.

***Dənizçilərin möhtəşəm duruşundan, igidliklərindən çoxumuzun xəbəri yoxdu.***

***1990 - cı il yanvarın 19 - dan 20 -sinə keçən gecədən, sonra başımıza gələnlərdən gəmilər "danışırdı" o günlərdə. Biz də onlardan danışırdıq. Həm harayımızı dünyaya çatdıran, həm də şəhəri dənizdən gözlənlən hücumdan qoruyan***



***dənizçilərin "Sabit Orucov" gəmisində qərargah yaratmağından, "Kapitanlar şurası"ndan, onların verdiyi qərarlardan xəbərsiz idik çoxumuz. Onlar haqda hamı danışırdı, həm də kimsə dəqiq heç nə bilmirdi. Bir də hamımız onlarla fəxr edirdik.***

***Yanvarın 19 - da sovet hərbi gəmilərinin döyüş hazırlığı vəziyyətinə gətirilməsindən də xəbərmiz yoxdu.***

Biz hadisələri sonra öyrənəcəkdik. Baş verən həqiqətlərdən zamanla xəbərimiz olacaqdı. Onlarla sonralar tanış olacaqdıq.

Mənim yaddaşıma, ürəyimə hopub qalıb 20 yanvar hadisələrində Dənizçilərin də ayrıca qəhrəmanlıq dastanı var.

KİV - lərdən, TV verilişlərindən az da olsa, Xəzər Dəniz Donanmasının rəşadətli mübarizə həqiqətini öyrəndik zamanla. Bəzi dənizçilərimizi tanıdıq. 100- dən artıq böyük və onlarla kiçik gəmilərin fit səslərinin həqiqətini eşitdik.

Tariximizə xalqın möhtəşəmliyini yazan gəmilərin kapitanlarından biri Kərəm Məmmədovun müsahibəsində oxumuşam: Dənizçilərin göstərdikləri rəşadət dünyanın hansı ölkəsində olsaydı, bütün dünya qəhrəmanlıqlarından danışardı. Bizdə dəli bir susqunluq var. Hətta ölkə əhalisinin bəzi kəsimləri bu mübarizədən xəbərsizdi.Dünyanın hansı donanmasının bir gəmisinə 3600 mərmi dəysəydi, o gəmi bütün dünyanın ziyarət etdiyi müqəddəs muzeyə çevrilərdi, amma bizim bəzi özünübilməzlər tez-tələsik gəmini doğrayıb metalloma çevirib həzmi - rabedən keçirdilər" ( 2017,19 yanvar,STRATEQ.AZ). Qəhrəman haqlıdır. Təəssüfki haqlıdır.

O vaxtkı dövlətin başçısı Mixail Qorbaçova tələbnamə göndərmişdi dənizçilər. Bu cəsarət güllləbəran edildi. Gəmilərdə yüzlərlə güllə, mərmi izləri vardı. Buxtaya yan almağa məcbur qalan gəmilərin onlarla dənizçisi həbs edildi, Orenburq, Ulyanovsk şəhər həbsxanalarına göndərildi, işgəncələrə məruz qaldı.

Orenburq həbsxanasına göndərilənlərdən biri də O idi. Yazıda adını çəkməsəm olmaz.Sonralar da yalnız imzasını tanıdığım: Faiq Balabəyli ilə AYB - də təqdimatların birində tanış olduq.

### *İnam dolu səsi,*

***çevikliyi, səmimiyyəti ilə seçilir Faiq bəy. Bir də həmişə üzündə təbəssüm var. Lap çətinliyi olsa da, kimsəni yükləməz dərdli baxışı, görüntü ilə. Elə bil insanlara da sevinc paylayır. Onu görəndə dərdini unudur adam. Şair, maraqlı jurnalist kimi də diqqətimi çəkirdi Faiq Balabəyli. Dənizçi olduğunu, 20 yanvar hadisələrinin iştirakçısı olduğunu biləndə heyrətimi saxlamadım: Siz qəhrəmansınız! Güldü.***

Mən isə çox ciddi düşünürəm ki, o günün iştirakçıları olan, hələ Sovet dövlətinin mövcud olduğu bir zamanda Hərbi flotun əmrlərinə qarşı çıxan, həbslə, güllələnməklə təhdid olunan dənizçilərimiz hər cür təşəkkürə, tərifə, təltifə layiqdirlər. Ona görə tez - tez Faiq Balabəyliyə deyirəm ki, siz qəhrəmansınız! Şair çoxdu. Yaxşı şair də az deyil. Amma Faiq kimi qəhrəman yaxşı şair azdı.

Ümumiyyətlə, o günlərin ağrı -acısını yaşasam da, 20 yanvar mənim üçün Məğrurluq günüdür. Qürurum,, Birliyimizə inamdır.

**Sakitcə yola saldığımız möhtəşəm Qələbə ili olan 2020 - ci il kimi.**

# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Unutmayaq, unutdurmayaq!*



**Əliyev Eltun Elnur oğlu 29.08.2001-ci ildə Sumqayıt şəhərində anadan olub. Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək 16.10.2020-ci il tarixdə Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Əsgər Eltun Əliyev ölümündən sonra Cəsur döyüşçü" və "Vətən uğrunda" medalları ilə təltif edilib.**

*Baş çavuş Vüsal Allahyarov*



**Ailənin tək oğul övladı olan Məmmədov Nicat Şamxal oğlu 18.05.1993-cü ildə Beyləqan rayonu SMD-42 qəsəbəsində anadan olub. Vətən müharibəsi başlanan zaman Səfərbərlik Xidməti tərəfindən döyüşlərə cəlb edilib və 21.10.2020-ci il tarixdə Zəngilan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Baş çavuş Vüsal Allahyarov ölümündən sonra" Vətən uğrunda" medalı ilə təltif edilib.**

*Əmanətin əmanətimizdir*



**Allahyarov Vüsal Şakir oğlu 22.04.1988-ci ildə Sumqayıt şəhərində anadan olub. Daxili Qoşunlarda baş çavuş olan Vüsal Vətən müharibəsi zamanı döyüşlərə qatılıb və noyabrın 7-si Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Şəhidimizin ailəli idi 7 yaşlı qızı Fatimə və 5 yaşlı qızı Fəhimə Vətənə əmanət qalıb. Baş çavuş Vusal Allahyarov ölümündən sonra "Şuşanın azad olunmasına görə", Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları və Qarabağ ordeni ilə təltif edilib.**

*Ana, məni təbrik elə çağırdılar, gedirəm*

**General Polad Həşimovun Şəhid olmasından sonra könüllü olaraq döyüşlərə qatılmaqla bağlı Səfərbərlik Xidmətində qeydiyyata duran, Vətən müharibəsi başlanandan 2 gün sora Səfərbərlik Xidməti tərəfindən döyüşlərə çağırılan Quliyev Azər Zakir oğlu bu xəbəri alan kimi qaçaraq evlərinə gəlib qapının zəngini basır, qapını açan anasına deyir ki, ana məni təbrik elə, məni də çağırdılar, gedirəm.**



**Səmərqə ana özünü itirir:**

**- Ay bala nə tələskənlikdir belə, hara gedirsən? Heç olmasa, otur bir parça çörək ye, çay iç. Gün günortanı keçir axı... Yox eeee... ay mama, tələsirəm. Çatmaram. Hə, mənim o cins şalvarımı ver, tez dəyişim deyib qaçaraq yolanmışdı müharibəyə.**

**Quliyev Azər Zakir oğlu 11.10.1996-cı ildə Sumqayıt şəhərində anadan olub. 23 oktyabr 2020-ci il tarixdə Xocavənd uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

*Şəhid Məhəmməd Hüseynov*



**Vətən müharibəsində qəhrəmancasına döyüşərək şəhid olan igidimiz. 4 bacının yeganə qardaşı bircə balasını əmanət qoyub Vətən uğrunda döyüşdü. Qəhrəmanımız şəhadətindən 13 gün sonra (7 oktyabr) doğulduğu Beyləqan rayonunun Bahar qəsəbəsində son mənzilə yola salındı.**

**Şəhadətindən sonra qəhrəmanımız "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.**

*Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub*



**03.05.2001-ci ildə Sumqayıt şəhərində anadan olan Novruzov Elvin Ziyafət oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Şəhidimiz ailənin tək oğul övladı idi.**

**Əsgər Elvin Novruzov Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub.**

# Qıcıqlandırıcı tendensiya: Köçkünlər Qarabağa dönəcəkmi? - CAVABIM

**Hazırda sosial şəbəkələrdə ən çox müzakirə edilən mövzulardan biri də köçkünlərlə bağlıdır. 1990-1994-cü illərdə Ermənistan Silahlı Qüvvələrinin , eləcə də, onlara havadlıq edən ölkələrin dəstəyi sayəsində Azərbaycan dövlətinin Qarabağ bölgəsi işğal olundu.**

Yurdlarından perik düşmüş qarabağlılar respublikanın 67 rayonuna səpələndilər. Artıq 30 ilə yaxındır ki, onlar bu ərazidə məskunlaşıb, özlərinə uygun şərait yaradıb, tikib-qurublar. Ailələri -uşaqları işlə təmin olunublar. Yerli əhali ilə qaynayıb qarışıblar. 30 il heç kimə zarafat gəlməsin. Bir ömrün böyük bir hissəsidir və adaptasiya mərhələsi də çox çətinliklərdən keçib.

### *2 il əvvəl gördüklərim: Dünya Cənnətə dönsə...*

Bu gün müzəffər ordumuzun rəşadəti sayəsində artıq 30 ilə yaxındı Ermənistan Silahlı Qüvvələrinin işğalında olan və 2 ay əvvəl azad edilən doğma yurdlarımıza dönmək ərəfəsindəyik. Azad olunmuş Qarabağ torpaqlarında artıq yenidənqurma və quruculuq işləri başlayıb. Yollar çəkilir, məişət-iaşə və ticarət obyektləri tikilir, elektrik-kommunikasiya xətləri bərpa olunur. Bütün bunlar qarabağlıların yurda qayıdışına, evlərinə dönüşünə görə görülən işlərin başlanğıcıdır.

Yenə qayıdaq sosial şəbəkələrdə və bəzi xəbər saytlarında köçkünlərlə bağlı paylaşımlara. Köçkünlərin 30 ildir hansı problem, çətinlik, ağrı-acı çəkdiyindən xəbəri olmayan bəzi qanısoyuq, burnundan o tərəfi görə bilməyən, savadsız, bilgisiz soydaşlarımızın "Köçkünlər geri dönmək istəyəcəkmi?" sualını vaxtaşırı gündəmə gətirmək həvəsinə. Ən pisi də odur ki, bəzən bir çox sosial şəbəkə istifadəçilərində köçkün soydaşlarımıza qarşı aqressiya, nifrət sərgiləyənlər də kifayət qədər olur. "Niyə?"sini anlamasamda bunu Bakıda hazırda ən rahat və təhlikəsiz şəkildə yaşayan 50 min (bəzi mənbələrə görə, 100 min) erməni əsilli vətəndaşlarımızın ayağına bağlayıram və "pataloji nifrət sindiromu" deyib keçirəm. Amma anlamayan və məlum sualı vermək üçün növbəyə durub qarabağlılara qarşı ağzınagələni danışanlara verəcəyim cavablar var.

*1. Sizdən soruşuram: 1980-90-ci illərdə qarabağlılar Qarabağdan kütləvi şəkildə köçmüşdümü? Xeyir!Çünki o cənnət elləri-obaları səbəbsiz yerə qoyub gəlmək imkansız bir şeydi. 1993-cü ildən o məşum köç başladı.*

*2. Tək ermənin yox Rusiya nizami ordusunun birliyi qarşısında igidlərimiz qəhrəmanlıq göstərsə də, yeni yaranmış və təhcizatı tam olmayan ordu, təsadüfi həmçinin, xəyanətkar adamların, o cümlədən qrupların ordunun tərkibində fəaliyyəti və özbaşnalığı, mərkəzləşdirilmiş komandanlığın olmamaması dinc əhalinin kütləvi şəkildə öldürülməsinə, iyrənc şəkildə təcavüzünə səbəb olurdu. Malıbəyli-Quşçular , Qaradağlı, Ağdaban, Başlıbel faciələri, Xocalı soyqırımından sonra əhali nisbətən ərazini tərk etməyə başladı.*

*3. Silahı ən son yerə qoyan məhz torpağı işğalda olan qarabağlılar oldu. (12 may 1994-cü il)Bir sözlə, heç kim doğma ocağına adi bir səbəbdən buraxıb başqa yurdlara dönmək istəməz!*

### *2 il əvvəl gördüklərim: Yaddan çıxmaz Qarabağ...*

Yadınızdadırsa 2019-cu ilin aprel ayında Bakı şəhəri, Kürdəxanı qəsəbəsi ərazisində yurd-yuvasından köçkün düşmüş soydaşlarımız üçün tikilən şəhərciyin açılış mərasimi olmuşdu.

Məlumat üçün qeyd edim ki, qəsəbədə layihə üzrə doqquzmərtəbəli 15 bina tikilib ki, bunlardan 9-u 54, 4-ü 36, digərləri isə 108 və 72 mənzillidir. Yaşayış kompleksində məktəb və uşaq bağçası, o cümlədən digər zəruri infrastruktur obyektləri - klub-icma mərkəzi, həkim məntəqəsi inşa edilib, istirahət parkı salınıb, uşaq meydançaları yaradılıb, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri görülüb.

Kompleks salınarkən elektrik, su, qaz, istilik təchizatı və suvarma sistemlərinin, rabitə və televiziya şəbəkəsinin qurulmasına xüsusi diqqət göstərilib. Açılış mərasimində iştirak edən ölkə prezidenti şəhərciyi qarış-qarış gəzib, hər bir xırda detalla maraqlanıb, mənzillərdə yaradılan şəraitlə tanış olmuşdu.

***Biz də öz növbəmizdə bunu dövlətimizin köçkün vətəndaşlara bir qayğısı kimi dəyərləndirdik. 15 hektar torpaq sahəsində salınan yeni məkana-qəsəbəyə səfərim iyun ayının ilk günü baş tutdu. Yenə də qeyd edim ki, bura şəhərcik demək tam bir haqsızlıqdır. Əslində şəhər içində möhtəşəm bir şəhər desək, daha doğru olar.***

O vaxt baharın gözəlliyi də şəhərciyə bir başqa mənzərə əlavə etmişdi. Hər tərəf yaşıllığa bürünmüş, yaşıl çəmənliyin ətrafı isə gül-çiçək kolları ilə bəzədilmiş, iri Eldar şamı, küknar ağacları isə bir adamboyundan uca olmuşdu. Bir sözlə, baharın xoş ətri və yüksək əhval-ruhiyyənin müşayəti ilə şəhərciyi gəzdik. Şəhərciyi gəzə-gəzə gəlib çıxdıq uşaq bağçasının qarşısına.



Bağçada yaradılan şəraitin gələcəyimiz olan körpələrin ürəyincə olduğuna əminik. 280 yerlik bağça balacaların zövqünə uyğun qurulub, onların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin edir. Otaqlar və dəhlizlər uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib. Bağçanın yerləşdiyi ərazidə geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıq zolağı salınıb. Səliqə-səhman, yenilik adamda lap uşaq olmaq istəyini yaradır. Bağçanın qarşı tərəfində, yolun sol səmtində isə 560 şagird yerlik tam orta məktəb yerləşir. Bir sözlə, hər şey möhtəşəm!

### *Hər kəs yurduna dönəcək! Dönməlidir!*

Orda- Kürdəxanı qəsəbəsindəki şəhərcikdə məskunlaşanlarla qısa müsahibələrimiz "xoş günə çıxdıqlarına görə, geriyə gönməyəcəklər" ittihamını alt-üst etmişdi. Yüksək standartlara uygun yaşam tərzi köçkünləri arxayınlaşdıra bildimi? Onlara Qarabağı unutdurdumu?

***Gəlin birlikdə araşdıraq.***

***Dünyanın ən gözəl məkanı kimi bilinən Laçın rayonundan Əli Qurbanovla, Möcüzə dolu, unikal Şuşa rayonundan olan Faiq İsgəndərov, Səxavət Qasımov, aranlı-dağlı Ağdamdan Ələkbər Məmmədov, Hüseyn Qarayev, Cantiq İsgəndərov, Novruz Tağıyev (Keştazlı), Təbibə Quliyeva (Şıxbabalı), kəhrizlər məkanı Cəbrayıldan Tofiq Xankişiyev (Hacılı) və başqaları ilə bu mövzuda xeyli söhbətləşmişdikdə. O lüks yaşam standartlarına başlayan bu insanların Qarabağ adı dillərindən , həsrəti gözlərindən düşmürdü.***

Onda cəbrayıllı Tofiq dayı mövzuya səsi titrəyə-titrəyə qoşuldu: "Qızım bilirsən, məni yaşamağa məcbur edən nədi? İçimdəki inam. Bəli, inanıram ki, güclü dövlətim, prezidentim, ordum var. Yüz minlərlə köçkünə qəsəbələr tikiblər, evlər veriblər. Camaatı zülümdən qurtarıblar. Bax, həmin gücnən-qüdrətnən bir gün də yurdumuza qovuşacağıma inanıram! Hər kimsə, hər hansısa başqa bir dövlət bizim daxili işimizə qarışır, Prezidentimizin Qarabağ uğrunda apardığı siyasətə pəl vurursa, Allah onun cəzasını versin. Əşşi, imkan verin kişi öz işiylə məşğul olsun də. Sən o qəzetində yaz ki, oğlum İlham, mən Tofiq dayın öz nəsli- kökümlə həmişə arxanda dayanmışam. Sənə inanıram, ordumuza güvənirəm! Di, Allah qolunuza qüvvət versin!".

Əziz sosial şəbəkə "qaragüruhçuları" sizcə, bu inamla yaşayan insan yurduna dönməzmi?

Elə söhbət əsnasında Keştazlı Novruz dayı ürək sözlərini ifadə etdi: "Allah hökumətimizin uğurlarını da, qazancını da, var-dövlətini də bol eləsin! Artıq biz də rahat mənzildə, şəraiti olan bir evdə özümüzü normal adam kimi hiss edəcəyik. Amma uşaqlar maşına yük yığanda nəsə ürəyim xarab oldu. Yadıma kəndimiz düşdü. 1993-cü ilin iyul ayının o narahat gününü bir anlıq canımda hiss elədim. Məcbur qalıb köçdüyümüz günü deyirəm. Təəssüf edirəm ki, kəndimdən çox uzaq, bu qərib yerdəyik. 27 il... Mən rayondan çıxanda 45 yaşım vardı. Müharibə başlayan günə qədər kənd təsərrüfatı sahəsində - sovxozumuzda çalışmışam. Üzümçülük sahəsi üzrə briqadir olmuşam. Düzdü, o vaxt sovet dönəminin, necə deyərlər, "kəsakəs" dövrü idi, çox işləyirdik, zəhmət çəkirdik, günün hardan çıxıb, hardan batdığından da xəbərimiz olmazdı. Amma yurdumuzdaydıq, evimizdəydik, elimizin içindəydik deyə, o çəkdiyimiz əziyyətlər də bizdə narazılıq doğurmurdu. İndi bilirsiniz, iş yox, iş yeri yox, o vaxtki əziyyətin heç bir faizini çəkmirik. Amma yorğunuq, tükənmişik, hər şeydən gileyliyik. Hər şeyə əsəbləşirik. Bizlər anasının yoxluğundan cığallıq edən, ağlayan, bağıran, hər şeyə tərs münasibət göstərən körpə uşağa dönmüşük. Amma bu gün fərqli gündü. Bu gün yurdumuza dönəcəyimiz günə inamımız birəbeş artdı. Köçkünlərin rahat yaşaması üçün bu qədər qəsəbə tikmək ancaq güclü dövlətlərə məxsus bir fərasətdi. Deməli, gücümüz, fərasətimiz varsa, niyə də yurdumuza dönməyək? İnanıram ki, Kürdəxanı bizim son düşərgəmiz deyil. Cox keçməz o qəsəbələrdən də üzü Qarabağa köç karvanlarımız axnaşar. İnşallah!".

***Əziz sosial şəbəkəkədəki "təəssübkeşlər", e l ağsaqqallarının 2 il əvvəl dedikləri və bu gün də sadiq qaldıqları söz! Onlar Qarabağa- öz doğma yurdlarına dönməyi istəyirlər. Həm də şiddətlə istəyirlər! Bu istək həmişə olub, dünən də, bu gün də, sabah da olacaq! Bu istəyin qarşısında siz, yenəmi, boşboğazlıq edib vətəndaşları bölgələrə bölməyə çalışacaqsınız?***

Qarabağ yenicə düşmən caynağından alınıb. Hələ minatəmizləmə prosesi tam başa çatmayıb. İnşallah, o torpaqlarda yaşamaq üçün cüzi şərait yaradılsın, evlər, məktəblər, bagçalar tam tikilsin, su , işıq, qaz çəkilsin!

Hamı bir nəfər kimi öz doğma ocağına dönəcək! Həm də mütləq dönəcək! Buna görə, kimsə narahat olmasın! Kimsə Qarabağ camaatını aşağılamağa da cürət etməsin! Heş kəs mənim yurdumu mən qədər sevə, orda yaşamağı mən qədər istəyə bilməz!

**Torpağım üçün canını fəda etmiş şəhidlərimizin ruhu qarşısında baş əyirəm! Bütün qazi və veteranlarımıza isə uzun ömür, can sağlığı arzulayıram!**

**Əntiqə Rəşid**

# AND YERİMİZ - ŞƏHİDLƏR XİYABANI

***Xalqın, Vətənin taleyi bir insanın taleyinə çevrilməlidir.***

***H.Əliyev,***
***Ümummilli lider***

***O gecə elə bil dünya öz məhvərindən ayrılmışdı. Ay da üzlərdəki qan ləkəsini görməsin deyə sanki uzaqlara çəkilib buludlar arasında gizlənmişdi. Beləcə ağır-ağır açılırdı səhər… Havadan da qan iyi gəlirdi o gün. Qəzəbindən titrəyən insanların gözləri də qan çanağına dönmüşdü elə bil. O gün qan rəngi çökmüş gözlər elə bil dünyanı lənətləyirdi. O gün, lənətləyirdi gözləri qan çanağına dönmüş zamanı.***

***Vətən uğrunda ölüm həyatın davamıdır.***
***Cambil Cabayev,***
***Qazax şairi***

O gün 1990-cı ilin 20 Yanvar gecəsi idi. Bu tarix qədim insan məskəni olan Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə qəhrəmanlarının şəhid olma günüdür. Bu gün faciə, məğlub olma, sınma günü yox, öz ölkəsinin, xalqının azadlığını, şərəfini, namusunu, qeyrətini və ləyaqətini hər şeydən uca tutan, canını torpaq, Vətən və onun müstəqilliyi yolunda qurban verən, şəhid olub müqəddəslik qazanan Vətən övladlarının ucalıq, əlçatmazlıq günüdür.

Bu gündə bütün ölkə əhalisinin böyüyündən kiçiyinə kimi hamı axın-axın müqəddəs Şəhidlər xiyabanını ziyarət edir, qışın qarlı-şaxtalı havasında məzarların üstünə təzə-tər güllər, çiçəklər qoyur, ruhlarına dualar oxuyur, baş əyirlər.

### *Tarixin müxtəlif zamanlarında*

***əzəli və müqəddəs torpaqlarımızdan özlərinə vətən düzəltmiş ermənilər heç vaxt, heç zaman torpaqlarımıza qarşı uzatdıqları çirkin, qan qoxuyan əllərini geri çəkməyiblər. Bizlər də bir dəfə də olsun o əlləri nə qətiyyətlə geri itələnmişik, nə də dibindən kəsmişik. Bundan ruhlanan ermənilər 1988-ci ildə rədd edilməyən, kəsilməyən həmən əllərini muğamatın beşiyi, xarı bülbülün vətəni olan cənnəti-məkan Qarabağa uzatdılar. İndi daha geniş açılmış şəkildə. Eynən dilənçi adətiylə.***

Hər zaman mərkəzin havadarlığından istifadə edən, ondan yararlanan haylar Qərbi Azərbaycanın əbədi və əzəli sakinlərini min bir işgəncələrlə doğma yerlərindən az bir vaxtda qovub çıxardılar. 200 mindən çox insan ev-eşiyindən qovuldu, illərlə dişi-dırnağı ilə yığıb-topladığı, alın təriylə, əlinin qabarıyla qazandığı var-dövlətini itirib qaçqın, köçkünə çevrildilər. Yüzlərlə qoca-qadın, uşaq nankor düşmənin gülləsinə tuş gəldi, qar uçqunu altında qaldı, itkin düşdü, dağlarda dondu, dəmir borulara doldurulub ağzı qaynaq edildi.

Azərbaycan xalqı bütün bu baş verənlərə seyrçi kimi baxmadı. Bir nəfər kimi ayağa qalxdı. Respublikanı nümayişlər, tətillər dalğası bürüdü. Bütün müəssisələr: fabriklər, zavodlar işini dayandırdı. Azərbaycan Milli Azadlıq mübarizəsini bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan xalqından, onun Milli Azadlıq Hərəkatından qorxuya düşən SSRİ-nin o vaxtkı rəhbəri M.S.Qorbaçov Sovet hərbi maşınını işə saldı. 1990-cı il 20 Yanvar gecəsi Sovet Ordusunnu xüsusi təyinatlı bölmələri, Daxili Qoşunların Stavropol, Krasnodar və Rostovdan səfərbərliyə alınan erməni əsgər və zabitlərinə qabaqlarına keçənləri, gözləri görənləri əzmək, dağıtmaq, öldürmək, parçalamaq, tapdalamaq əmri verilmişdi.



Sələfi XI Qızıl Ordudan fərqlənməyən "şanlı" Sovet Ordusu həmin dəhşətli gecədə 137 nəfər günahsız qocanı, qadını, məktəbli uşağı küçədə, eyvanda, avtobusda qanına qəltan elədi. 700-nü yaraladı. 800-dən çoxunu həbs etdi. Bu, insanlıq tarixində öz vətəndaşına, kiçik "qardaş"ına qarşı mərkəzin görünməmiş, ağla gəlməyən iyrəncliyi, vəhşiliyi idi.

Bakı faciəsi ən qanlı faciə idi. O günlərdə Kalaşnikov avtomatlarından ağırlıq mərkəzləri dəyişdirilmiş 5,45 çaplı güllələr atılmışdı. Bədənə daxil olanda hərəkət istiqamətini dəyişən belə güllə insanı sıradan çıxarmaqla yanaşı, onun ağrı-iztirablarını qat-qat artırır.

Qanlı yanvar günündə xəstəxanalar, təcili yardım maşınları atəşə tutulmuşdur. Həkim A.Marxyovka öldürülmüşdür.

O gecə ölülərin qiymətli şeyləri oğurlanmış, mənzillər qarət edilmiş, onların insanlıq ləyaqəti alçaldılmışdır.

### *Qanlı yanvar günündə*

***şəhidlərin sayı 131 nəfər olmuşdur. Həlak olanların 122-si kişi, 5-i qadın, 4-ü uşaqdır. Milli tərkib belədir: 117 azərbaycanlı, 3 yəhudi, 3 tatar, rus, həlak olanlar 4 milis işçisi, 1 "təcili yardım" maşının sürücüsü, 4 yanğınsöndürən, 12 tələbə, 1 aspirant, 3 elmlər doktoru.***

Deyirlər tarixdə heç nə unudulmur, heç kim, heç nə yaddan çıxmır. Və heç bir cinayət də cəzasız qalmır. Amma Azərbaycan xalqının qatı düşməni olan M.S.Qorbaçov cəzasız qaldı. Artıq 30 ildir ki, Azərbaycan xalqı 20 Yanvarı Ümumxalq Hüzn Günü kimi qeyd edir. Bakımızın ən uca zirvəsində: Dağüstü parkda uyuyan Milli Azadlıq qəhrəmanlarını daim anırıq. Şəhidlər xiyabanı hər birimizin and yeridir.

***Çox şəhid verən və çox fədakarlıq göstərən bir ölkə istədiyi səviyyəyə də çata bilər.***

***Mahatma Qandi,***
***Hindistan Milli Azadlıq Hərəkatı rəhbərlərindən biri***

Ölkəmizin bütün kənd, qəsəbə və şəhərlərində yüzlərlə şəhidin adına küçə, park, məktəb var. Parklarda, məktəblərdə onların heykəlləri və büstləri qoyulub. Bakının 20 Yanvar dairəsində 20 Yanvar şəhidlərinin xatirəsinə 1500 kvadratmetr ərazini əhatə edən abidə-kompleks qurulub. Abidə-kompleks Yasamal Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə rayonun daxili imkanları hesabına inşa olunub. 20 Yanvar Azərbaycan tarixinin ağrılı və eyni zamanda ulu öndər Heydər Əliyevin dediyi kimi xalqın öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu təsdiqləyən qeyri-adi vətənpərvərlik, igidlik nümunəsidir. Abidənin üzərində həmin gecə müstəqillik uğrunda şəhid olmuş 131 nəfər ölümsüzlük zirvəsinə ucalmış vətən övladının adı qızıl hərflərlə həkk olunmuşdur. Abidə-kompleksin mərkəzində bürüncdən tökülmüş heykəl kompozisiyası da var.

### *Çox təəssüf ki,*

***insanlıq tarixində misli görünməmiş bu cinayət işi cəzasız qalıb. Doğrudur, 20 Yanvar faciəsinə iki dəfə - 1992-ci və 1994-cü illərdə siyasi-hüquqi qiymət verilib. Ulu öndər Heydər Əliyevin səyi nəticəsində günahkarların adı məlum olub. Amma buna baxmayaraq, sanki onlar cinayətkar deyillərmiş kimi hələ də azadlıqda gəzirlər. Keçmiş Yuqoslaviyada baş vermiş hərbi cinayətin hər bir iştirakçısı həbs olunaraq layiqli cəzalarını alıblar. Harda və nə zaman baş verməsindən asılı olmayaraq, kütləvi insan qətlinə səbəb olan günahkarlar cəzalandırılmalıdır. Çox maraqlıdır ki, dünya ictimaiyyəti də insanlığa qarşı cinayət törətmiş şəxslərin cəzalandırılmasıyla bağlı məsələlərə həssaslıqla yanaşır. Belə olan halda biz nə üçün susuruq? Niyə başda M.S.Qorbaçov olmaqla keçmiş SSRİ rəhbərliyini beynəlxalq məhkəmələrə vermirik? Bəlkə onların ölüb-getməsini gözləyirik? Bunun bizlərə nə faydası?***

Bakıda törətdiyi qırğınlarla kifayətlənməyən M.S.Qorbaçov SSRİ-nin bir çox respublikalarında da belə qanlı hadisələr törətdi. Bakı qırğını miqyasına görə ən böyüyü, amansızı idi. Haqlıyla haqsızı eyni tərəziyə qoyan, hər zaman siyasi maraqlarını gözləyən Nobel komitəsi M.S.Qorbaçovu Nobel sülh mükafatına layiq gördü. O vaxt etiraz edib səsimizi belə qaldırmadıq.

Hamımıza məlumdur ki, Moskvada "Qorbaçov fondu" fəaliyyət göstərir. Nəyə görə həmin fonddan Azərbaycan xalqı üçün konpensasiya almırıq? Axı cinayətkar Qorbaçovdur.

**Hər il faciənin ildönümü ilə bağlı tədbirlər keçirilir, ölkənin bütün şəhərlərində, rayonlarında, qəsəbəsində idarə və müəssisələrdə anma mərasimləri qeyd olunur, dünya ictimaiyyətinin diqqətini bu qanlı faciəyə yönəltmək üçün Azərbaycanın xaricdəki səfirliklərində mərasimlər təşkil olunur. "Əbədi Məşəl" önünə Azərbaycan prezidenti əklil qoyur, xarici səfirliklərin nümayəndələri şəhidləri ziyarət edir və Azərbaycan xalqına baş sağlığı verirlər.**

**Məhərrəm Şəmkirli**

# Müzəffər Ordunun igid zabiti: Baş leytenant Pərviz Aslanovun döyüş yolu...




**2020-ci ilin 27 sentyabrında Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatı başlaması barədə qərar verildi. 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi və düşmən məğlubiyyətini etiraf edərək ağ bayraq qaldırdı . Eyni zamanda müzəffər ordumuz soydaşlarımızın 30 illik yurd həsrətinə son qoydu.**

Qalib ordumuzun igid zabitlərindən biri - baş leytenant Pərviz Aslanov da 44 günlük müharibədə öz sözünü demiş zabitlərimizdəndir. Pərviz müəllim 1975-ci ildə Ağdam rayonu Baş Qərvənd kəndində anadan olub. Orta məktəbi elə həmin kənddə başa vurub. 1994-cü ildə Ermənistan Silahlı Qüvvələri tərəfindən doğma kəndi işğal olunub. Aslanovlar ailəsi elə o vaxtdan Bakıya pənah gətirib. 1995-ci ildə Bakı Dövlət Universitetinin "Beynəlxalq jurnalistika" fakültəsinə daxil olur.

İlk jurnalist fəaliyyətinə də "Ədalət" qəzetində başlayır. Pərviz universitetin nəzdində açılmış hərbi kafedrada biliklərə yiyələnmişdi. 2001-ci ildə həqiqi hərbi xidmətə çağrılanda o artıq BDU- ni leytenant olaraq başa vurmuşdu.

Telejurnalist fəaliyyətinə İctimai TV başlayan Aslanov hazırda LiderTV -də "Xəbərlər Departamenti"ndə redaktor işləyir. Ən böyük diləyi hərbi biliklərini torpaqlarımızın düşməndən azad olunması üçün başlayacaq haqq savaşında sınaqdan keçirmək idi. Baş leytenant 27 sentyabrda başlayan Vətən müharibəsində ağır amma şərəfli döyüş yolu keçib.

**Ali Baş Komandan İlham Əliyev tərəfindən Füzuli və Qubadlı rayonlarının işğaldan azad edilməsi uğrunda aparılmış döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidlik və şücaət nümayiş etdirdiyi üçün "Füzulinin azad olunmasına görə" və " Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.**

**P. Aslanov ailəlidir, 2 oğul övladı var.**

**Əntiqə Rəşid**

# RAMİZ KƏRƏM - ÖZÜNÜYAZAN ŞAİR

## VƏ YAXUD POEZİYAMIZDA RAMİZ KƏRƏM ÜSLUBU VAR

**Ramiz Kərəm geniş ictimaiyyət arasında bir o qədər tanınmasa da, Azərbaycan ədəbi camesinə bu imza kifayət qədər yaxşı tanışdır. Çünki Azərbaycan Yazıçılar Birliyinin təsisçisi olduğu "Azərbaycan "və "Ulduz"jurnallarında müntəzəm olaraq onun şeirləri dərc edilib. Ona görə müntəzəm olaraq dərc edilib yazdım ki, ədəbiyyata gələndən, imzası ədəbi ictimaiyyət tərəfindən saygıyla qəbul olunandan adıçəkilən dərgilərdə ən çox nəşr olunan müəlliflərdən biri olub. R.Kərəmin şeirlərinin aylıq ədəbi dərgilərdə müntəzəm işıq üzü görməsi yalnız onun şeirlərinin poetik siqləti ilə bağlı idi. Onu da qeyd edim ki, R. Kərəmin şeirləri ilk dəfə ədəbi ictimaiyyətə elə "Azərbaycan" jurnalından təqdim olunmuşdur.**

Ötən əsrin 80-ci illərində "Azərbaycan " və "Ulduz" jurnallarında titullu, səlahiyyət və mənsəb sahibi olan yazarların dərc edilməsi belə çox müşkül məsələ idi. R. Kərəmin ilk şeiri 1980-ci ildə, tələbə olarkən Ə. Əylislinin baş redaktorluğu ilə nəşr edilən "Azərbaycan" jurnalında işıq üzü görmüşdü. İlk şeiri dedim, adıçəkilən həmin nüfuzlu ədəbiyyat dərgisində Ramiz Kərəmin düz beş şeiri çap olunmuşdur. Həmin dövrü yaşamış insanlarda nostalgiya yaradacaq bir şeyi də deyim ki, daha inandırıcı görünsün. Söhbətgedən dönəmdə "Azərbaycan" jurnalında dərc olunmaq Parnasa (XIX əsrdə Fransada "sənət sənət üçündür" nəzəriyyəsini müdafiə edən tanınmış yazarların yaratdığı ədəbi cərəyan) düşmək kimi qəbul olunurdu. Bu məqamda bir etirafı da etmək ədalətli olardı. O dövrdə sovet rejiminin yasaq və qadağalarını istisna etsək, ədəbiyyata, ədəbi-bədii mətnə ciddi bir yanaşma var idi. R. Kərəm ədəbiyyata-sözə ciddi kriteriyaların sərgiləndiyi bir dövrdə gəlmişdir. Onu da səmimi etiraf edək ki, onun şeirləri ədəbi ictimaiyyət tərəfindən ilk gündən sorğu-sualsız, əngəlsiz-maneəsiz qəbul olundu. Onun işıq üzü görən ilk şeirləri ədəbi məziyyəti, bədii mükəmməlliyi ilə diqqəti cəlb elədi. Bu məqamda onu da xüsusi vurğulamaq istərdim ki, R. Kərəmin ilk ədəbi nümunəsi ilə son yazdığı poetik mətnlər arasında diqqəti cəlb edən dəyişiklik hiss olunmadı. Onun bütün şeirləri eyni ilhamla yazılıb, yaradıcılığına bütövlükdə dəyişilməyən bir ritm, eyni bir ahəng xasdır. O, sözə yeni ruh, təzə nəfəs gətirmişdir. İlk qələm təcrübəsindən tutmuş son şeirinə qədər özü demiş, "sözdən asılan" bir şair oldu. Bu da birbaşa istedadın gücü ilə bağlıdır.

***R. Kərəm ilk gündən özünəməxsus bir poetik formanın yaradıcısı oldu. Poetik ənənədən qidalanan şair orijinal bir dəst-xəttə imza atdı. Bütün yaradıcı və orijinal yazarlar kimi, R. Kərəmin də şeirləri uzaqdan çağırır. Bu mənada görkəmli fransız yazıçısı Jül Renar dediyi kimi : "İnsan üslubdur". Azərbaycan poeziyasında Ramiz Kərəm üslubu var. Üslub nədir? Üslub sözün arxitektonikası, üslub fikir, fikir də insan deməkdir. Çox təəssüflər olsun ki, onun yaradıcılığı barədə ədəbi tənqidimizin xüsusi bir araşdırması yoxdur. Ancaq onu da qeyd edək ki, ədəbiyyat tənqidçiləri müasir Azərbaycan poeziyası barədə araşdırmalarında R. Kərəmin yaradıcılığına müsbət rəy bildirmişlər.***

R. Kərəmin üç şeir kitabı nəşr olunub. Bircə kitabı belə onun əsl şair olduğunu təsdiqləyər və ədəbiyyatda qalması üçün kifayət edərdi. Bircə kitabla dünya ədəbiyyatında yaşayanlar çoxdur. R. Kərəmin kitablarının ikisi barədə ("Sərçə qanadında qurğuşun yükü" adlı sonuncu kitabı pandemiya dövründə çap olunub) yazılmış resenziyalarda onun yaradıcılığının ədəbi-bədii məziyyətləri təhlil edilib. R.Kərəmin öz ifadəsini işlədəcəm. O, ürəyinə yatan, bəyəndiyi şairlər haqqında deyərdi: " filankəs özünüyazan şairdir". Bu, adi bir ifadə deyil. Bu məqamda məşhur bir ifadəni də xatırlatmaq yerinə düşərdi: "Kim özgələri ilə vuruşur, qazancı ritorikadır, kim özü ilə vuruşur nəticəsi poeziyadır". Hər kəs özü ilə döyüşə bilmir. Hər kəs özü ilə döyüşə bilmədiyinə görə də "özü" ola bilmir, "özünü" yaza bilmir. Özünüyazanlar özü ilə döyüşənlərdir. Özünüyazan orijinal şairlərdir. R. Kərəmin orijinal və bənzərsiz şair olduğunu tanınmış ədəbiyyatşünas, dəyərli ədəbi tənqidi məqalələr müəllifi olan Vaqif Yusifli də onun haqqında yazdığı məqalədə xüsusi olaraq vurğulamışdır. Tanınmış ədəbiyyat tənqidçisi, filologiya elmləri doktoru Vaqif Yusifli R. Kərəm haqqında yazdığı məqalənin adını, çox doğru olaraq, "Bu Ramiz Kərəm, ancaq özünə oxşayan şair" qoymuşdur. Kiminsə təsiri altında, hansısa böyük bir yazarın yaradıcılığının təsir dairəsində orijinal şair olmaq mümkün deyil. R. Kərəm özünüyazan şairdir:

*Hamı özünün ən dadlı,*
*Şirin sözünü oxuyur.*
*Hamı öz taleyini,*
*Hamı özünü oxuyur.*

R. Kərəm özünüyazan şairlərdən olduğundan onun yaradıcılığı mövzu və mündəricə cəhətdən çoxqatlı və çoxrənglidir. Onun yaradıcılığında mövzu və mündəricənin rəngarəng olması şairin birbaşa daxili dünyası, təbiət və xarakteri ilə bağlı idi. R. Kərəmin yazı manerasına bələd olanlardan biri də mənəm. O, yazmaq xatirinə, imzasını nümayiş etdirmək naminə yazmayıb. O, zorən yazmayıb. Necə ki, əvvəlki məqaləmdə yazmışam:" o, şair doğulmuşdu". R. Kərəm, inanmıram ki, nə vaxtsa özünü şeir yazmağa məcbur etmiş olsun. Onun pencəyinin döş cibində həmişə dəftərçə və ya qatlanmış ağ vərəqlər olardı. İlham pərisi harada gəldi- yol gedəndə, çay içəndə, çörək yeyəndə- elə oradaca əlinə qələm alardı. Onun şeirləri könüldən süzülüb, ürəkdən gəldiyi üçündür ki, elə ürəkdən yazılıb, ürəklə yazılıb. Bəlkə də, elə bu səbəbdəndir ki, onun mövzu dairəsi də çox geniş və əhatəlidir. R.Kərəm yurd sevgisindən, torpaq nisgilindən, Araz həsrətindən, bir gecənin ay işığından, səhərin tərs üzündən, yarpaqların payız qəmindən, payızın dəli küləyindən, göydən ötən qərib durnadan , narın- narın yağan yağışdan, qövsi-quzehdən, bir qərib nəğmədən, yuxusuna gələn nəğmədən, kişilərin göz yaşından, bir günün nağılından, ümidin rəngindən, günahdan-ahdan, daha nələrdən yazmayıb. O, nədən yazıbsa, özü demişkən,"ürəyinin işığından" keçirib, elə ürəyinin işığında da yazıb. Mən həmişə o qənaətdə olmuşam ki, poeziya ürəyin, nəsr isə daha çox beynin məhsuludur. R.Kərəmin poeziyasının alt qatında sufilik dayanır:

*Əlində ümidi ölən quşların*
*Ağrısı-acısı sənin ki deyil.*
***O telin üstündə tənha oturmuş,***
***Qaranquşun qəmi qəmin ki deyil.***
***Gözün görə-görə ayağın altda,***
***Sevgi yaraşığı bir gül sınıbsa,***
***Tonqal alovunda, qış qırovundan.***
***Ürək soyuyubsa, göz yayınıbsa,***
***Bu yollar o yurda aparmaz səni.***

Elə bu məqamda digər bir poetik nümunəyə diqqət edək:

***...Qaçırdım tələsik uşaqlığımla,***
***O yaldan o üzdə quzu gəzməyə,***
***Beşdaş oynadığım qızı gəzməyə,***
***Tanrının əlləri mənə yaxınmış,***
***Əlimi uzatsam, çata bilərdim,***
***Tanrının əlindən tuta bilərdim.***

***Kəpənək qovmağa qarışıb başım,***
***Çiyələk yığmağa qarışıb başım,***
***Göylərə baxmağa vaxtım olmayıb.***
***Demə tələsdikcə kişiləşməyə,***
***Hər il böyüdükcə mən qarış-qarış,***
***O əllər üstümdən uzaqlaşırmış.***

***Nə yaldan o üzdə quzu qalıbdır,***
***Nə də çəmənlərin qızı qalıbdır.***
***Təkcə alnımdakı yazı qalıbdır,***
***Tanrının əlləri məndən uzaqda.***

Bu sufi düşüncəsi deyilmi?! Bu məqamda "heyrət, ey Tanrı"deməkdən başqa söz qalmır.

Dünyanın nəhəng yazarlarından sayılan F.M. Dostoyevski deyib ki, dünyanı gözəllik xilas edəcək. Gözəllik konkret olduğu qədər də mücərrəddir. Bir də gözəlliyin özü də təmizliyə və saflığa möhtacdır. Gözəllik özü də saf olanda müqəddəsləşə bilər. Dünya yaranandan insan övladı mənəvi burulğandan xilas olmağa can atır. "Cümlə-xəyanətlərə bais olan insanın" xilasının ən böyük yolu elə mənəvi təmizlikdən keçir. R. Kərəm mənəvi təmizliyi ürək-könül işi bilir. Onun poeziyasında bir könül-qəlb obrazı boylanır. O obraz, o qəlb-könül elə Ramiz Kərəmin özüdür. Məqamından asılı olaraq şair könlü-qəlbi ilə kəlmələşir, ( müasir leksika ilə desək dialoqa girir), məqamı çatanda sükuta dalıb könlünü-qəlbini oyadır ( indiki istilahla desək monoloq söyləyir):

***Nə qədər yamayım bu könlü, Allah,***
***Görürsən hər yeri yamaq-yamaqdı.***
***Deyib gülə-gülə yamaq vururam,***
***Baxan elə bilir kefdi-damaqdı.***

***Səhərdən-axşama sap çəkir hamı,***
***Çəkdikcə sökülür köhnə yamaqlar.***
***Sökülən yerlərə yamaq vurmağa,***
***Ümidlə açılır yenə sabahlar.***



***Yamaq könül üstə necə görünür,***
***Söyləsin kim baxıb görə birinci.***
***Əgər yaraşırsa ən gözəl qumaş-***
***Qərib təsəllisi, yetim sevinci.***

***Bundan ayrı bir iş gəlmir əlimdən,***
***İl ilə oxşardı, gün günə düşər.***
***Hər axşam yamaqlıq parça gəzirəm,***
***Süzəlmiş könlümün rənginə düşər.***

R. Kərəm bu dünyaya könlünün-qəlbinin gözü ilə baxıb. Bu dünyada görüb-götürdüyü bütün nəsnələri "ürəyinin işığından" keçirib, rastlaşdığı hər şeyi ürəyinə əmanət edib:

***Ötənlər-keçənlər qəlbimdən ötrü,***
***Sərçə qanadında qurğuşun yükü.***
***Tanrı, səndən özgə bir kimsə bilmir,***
***İndi çox ağırdı bu quşun yükü.***

Sufilikdə qəlbin-könülün məxsusi və ayrıca yeri var. Güman edirəm ki, R. Kərəm poeziyasını sufiliklə bağlamaq, onun şeirlərində sufizm izlərini axtarmaq bir çoxlarına nəinki inandırıcı, hətta təəccüblü görünə bilər.

Bütün əsl şairlər kimi, R. Kərəm də mənəvi aləmi, bəsirət gözü ilə sufidir. Bu məqamda köməyimə sufizmin nəhəng sütunlarından olan Mövlanə Cəlaləddinin fikirləri çatdı.

Mövlanə, görün, nə söyləyir: "Sufiyə dindar demək olarmı? Yox, o, daha ali yüksəklikdədir. O, etiqadın və kafirliyin fövqündədir. Onun üçün saleh əməl, yaxud günah deyilən şey yoxdur.O gizlidədi, axtarmayın onu". Sufilik yalnız dini təriqət kimi qəbul olunmamalıdır. Sufilik könül işidir. Sufilik mənəviyyatdır. Sufilik məslək və əqidədir. Əsl şairlik də könül işidir. İnsanı insanlıq mərtəbəsinə ucaldan, ali məqama yüksəldən onun könlü-qəlbidir. Dedik ki, R. Kərəmin poeziyasında könül-qəlb obrazı canlanır. Bu obraz onun əksər şeirlərindən boylanır:

***...Ürəyim başdaşı ölçüsündədir,***
***Sığışır köksümə necə bilmirəm***

***... Gözlərindən ağlayanlar yıxılmır,***
***Ürəyindən ağlayanlar yıxılır.***

***... Ürəyim əlimdə yarpaq kimidir***

R. Kərəmin bütün şeirlərində ruhi enerji cəmlənib. Sırf ovqat (əslində, bütün həqiqi şeirlər ovqatdan doğulur), əhval-ruhiyyə şeirlərində belə insanı tərpədən, oxucunu silkələyən bir enerji yatır:

***...Heç bilmədim harda idim,***
***Burdan uzaqlarda idim.***
***Mən özgə bir halda idim,***
***Özgə haldan qayıtdım.***

***... Yaşamaqdan vaxtı yorduq,***
***Neçə taxtı-tacı yorduq.***
***İstəməkdən baxtı yorduq,***
***Hər dəfə istəmək olmur.***

R. Kərəm öz müşahidəsi , duyğu-düşüncəsi ilə seçilən, dünyanın məğzinə, insanın mahiyyətinə varan bir şairdir:

***Qəmlər çox acı olsa da,***
***Yavaş-yavaş yeyildi ha.***
***Necə daşıdın bu yükü,***
***Adam yükü deyildi ha.***

***Sən bu dərdi necə çəkdin,***
***Deyə-deyə, gülə-gülə.***
***Adına arsız dedilər,***
***Dərdlərini bilə-bilə.***

***... Dərdin toxumluq olsa da,***
***Yer əkənə oxşamırsan.***
***Ürəyində becərsən də,***
***Dərd çəkənə oxşamırsan.***

***Ağlasan da göz yaşını,***
***Kimsə görməz, kimsə bilməz.***
***Duyduğunu kimsə duymaz,***
***Bildiyini kimsə bilməz.***

***Ağlamaqla nə düzəlir,***
***Bir şey çıxmır gülməkdən də.***
***Yaşamaq da çətin işdi,***
***Adam qaçır ölməkdən də.***

Bu məqamda yenə "Heyrət və Təəssüf !"dən başqa heç nə demək olmur.

R. Kərəmin poeziyasında insan oğlunu yaranışdan düşündürən bir olum-ölüm xətti (mövzusu) var. Düzdür, bu ədəbiyyatın əbədi mövzusudur. Təbii ki, əbədi və əzəli mövzuya yeni yanaşma olmasa, tavtologiya olaraq qalır. Bu əzəli mövzu R. Kərəmin ən müxtəlif mövzularda yazılmış şeirlərdən belə boylanır:

***Bir gün doğuluruq, bir gün ölürük,***
***Bir gün açan çiçək bir gün dərilir.***
***Bu gözəl dünyaya gəldiyimiz gün,***
***Bizim qətlimizə fərman verilir.***

Bu misralar şairin "İki gün" adlandırdığı şeirindəndir. İki gün deyəndə şair, şeirin adından da göründüyü kimi, insanın olum və ölümünü özündə yaşadan ilk və son günü nəzərdə tutur. Haqqında danışdığımız şeir həcmcə kiçik, ancaq mündəricə cəhətdən çox böyükdür. İstedadlı şair hamımızın bildiyi bu iki günü, bu iki günün arasındakı illəri istedadının gücü ilə son dərəcə yüksək səviyyədə poetikləşdirmişdir:

***Beşcə il də, lap yüz il də yaşaya bilsək,***
***Bu ayrılıq, ölüm dərdi gözümüzdə bir.***
***Amma bircə fərqi var ki, zalım dünyadan,***
***Yüz yaşında köçən kəslər bu yeri-göyü,***
***Beş yaşından köçənlərdən daha çox sevir.***

Yeri gəlmişkən, R.Kərəmin şeirlərinin bir özəlliyini də diqqətə çatdırmaq istərdim. Onun hər bir şeiri çiynində bir poemanın "yükü"nü gəzdirir. Nəzəri baxımdan poema özündə epik təfərrüat daşıyır. R. Kərəmin poeziyasında isə lirik mündəricənin poetik bir təfərrüatı diqqəti cəlb edir. Onun üslubunun özünəməxsus olduğunun bir təsdiqi də elə budur. Bəlkə, elə bu səbəbdəndir ki, o, irihəcmli poema yazmağa ehtiyac duymayıb.

R. Kərəmin poeziyası sadə və səmimidir. Onun şeirlərindəki bu sadəlik özündə çox böyük həqiqətləri ifadə edir. İlk baxışda bəzilərinə sadə görünən bu şeirlərin alt qatında insanın kədəri, ağrı-acısı, duyğu-düşüncəsi yatır. Zahirən sadə görünən bu şeirlər adi deyildir. Ancaq ona əminəm ki, poeziyanın yalnız əlifbasından xəbərdar olanlar bu şeirləri adi qəbul etməzlər. Heç kəs duyğu-düşüncəsini, fikir və xəyalını, əməl və niyyətini bu cür- bu üslubda, bu formada ifadə edə bilməz. Bax, elə özünü yazmaq, özünə oxşamaq budur.

R. Kərəm poeziyasının sadəliyi və səmimiliyi onun təbiəti, sabit və dəyişilməyən kişi xarakterindən irəli gəlirdi. O, hər yerdə və hər zaman sadə və səmimi idi. O, öz dünyasını-daxili aləmini qurmuş bir insan idi. R. Kərəm bütün məqamlarda, o cümlədən şeirlərində öz dünyasından-insani mahiyyətindən-dünyagörüşündən, emosiya, ovqat və əhval-ruhiyyəsindən çıxış edirdi.

**Sonda bir məsələni də diqqətə çatdırmaq istərdim. İstedadlı şairimiz R. Kərəm 2020-ci ilin 15 dekabrında bu işıqlı dünya ilə vidalaşıb. Müəllifini unutduğum bir ifadə var: " Ölüm şöhrət gətirir". R. Kərəmin sadəliyi, səmimiliyi, bəlkə də, daha çox güclü istedadı və xarakteri (o, öz yoluyla gedirdi) onun məşhurlaşmağına əngəl oldu. Ancaq R. Kərəm poeziyasının xiridarları onun ədəbiyyatımızın unudulmazları sırasında yer alacağına əmindirlər.**

**XEYBƏR GÖYYALLI**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

№ 6 (2187) 19 yanvar 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# QƏLƏBƏMİZİN KOMANDANI PREZİDENTİMİZDİR

**Tariximizin ən ağrılı məqamlarından biri, bəlkə də ən birincisi coğrafiyamızda yaşayan ermənilərlə bağlıdır. Belə ki, yaranışdan dövləti olmayan bir xalqın "böyük Ermənistan" iddiası zaman-zaman türk xalqlarının, xüsusilə azərbaycanlılara hər zaman problem yaşadıbdı. Bu problemlərin layihəsində dayanan səbəb isə onların işğalçılıq, talançılıq siyasəti, türk xalqına qarşı faşist niyyəti olubdu. Əgər bu dediklərimizi tarixin əsrləri və illəri sırasına ardıcıl düzsək, onda görərik ki, dünyanın Azərbaycandan xeyli uzaq ərazilərindən, xüsusilə Hindistandan başlayaraq dünyaya səpələnən ermənilər hər zaman özlərindən güclü olanlara itaət etmiş, özlərindən zəif olanlarla isə amansız rəftar etmişdilər.**

Doğrudur, xislətlərində bütün yaramaz cizgilərlə özünü büruzə verən bu millət yaltaqlanmağı da xüsusi bir peşə kimi mənimsəyiblər və ondan zərurət yarananda çox məharətlə istifadə edirlər. Görünür, bu cizgilər ermənilərin havadarlarının ən çox işinə yarayan cəhətlərdi. Ona görə də böyük dövlətlər, xüsusilə Rusiya hər zaman erməni xidmətlərindən istifadə etmiş, "erməni kartını" gündəmdə saxlamışdı. Özü də bu proseslərdə işğalçılıq, qəsbkarlıq mərəzli ermənilər hər zaman yazıq, alçalıdılmış, məzlum kimi təqdim olunmuşdu. Və dünya da onların halına bu və ya başqa formada acımışdı.

Biz öz tariximizin səhifələrində qarşılaşdığımız erməni məskunlaşmasının vaxtını dəqiq bilirik. Bu prosesdə çar Rusiyası başlıca fiqur olubdu. Onların yürütdüyü siyasət nəticəsində İrandan və digər ölkələrdən köçürülən ermənilər Azərbaycan ərazisində yerləşdirilmişdi. Bu yerləşdirmə də sonda həmin "erməni xəstəliyinin" şaxələnməsinə şərait yaratmışdı. Belə ki, sovet Rusiyası artıq Qafqazda özünün yerli, qədim xalqlardan sayan ermənilərə dövlət yaratmaq imkanı da verdi.



Hər kəsə məlumdur ki, İrəvan xanlığı ərazisində yerləşən ermənilər Qarabağa ayaq açandan sonra bu ərazinin onlara məxsus olduğunu gündəmə gətirdilər. Əgər ötən əsrin əvvəllərindən başlayan erməni basqınlarını, soyqırımlarını xatırlasaq, onda görərik ki, öncə çar Rusiyası, sonra isə bolşevik Rusiyası Azərbaycanın aran və dağlıq bölgələrində, eləcə də Qubada, Şamaxıda və digər ərazilərimizdə törətdikləri qətliamlarda tutduğu mövqe ilə əslində ermənilərə müəyyən şəraitlər yaratmışdılar. Faktiki olaraq ötən əsrdə törədilən erməni cinayətlərinin cavabsız qalmasında və yaxud onun ermənilərin istəyinə uyğun tirajlanmasında məhz havadarlarının xüsusi rolu olubdu. Bu da onlara imkan verir ki, öz saxta dövlətçilik arzularının gerçəkləşdirmək üçün daha geniş miqyaslı şəbəkədə fəaliyyətlərini gerçəkləşdirsinlər.



***"Dənizdən-dənizə" dövlət iddiasında olan ermənilər siyasətlərində əsas qayə kimi Azərbaycan ərazilərinin işğalını önə çəkiblər. 1988-ci ilə qədər daha çox gizlin aparlan bu mübarizə, əslində isə bu müharibə artıq havadarlarının, o cümlədən də Moskvadakı qəyyumlarının xeyirduası ilə açıq müstəviyə çıxarılmışdı. Məhz 1988-89-cu illərdə azərbaycanlıların Ermənistandan deportasiya edilməsi və buna da sovet hökumətinin göz yumması göstərir və sübut edirdi ki, ermənilərin bu siyasəti təkcə Ermənistan SSRİ ərazisini deyil, həm də Azərbaycan SSRİ ərazisini də ələ keçirmək istiqamətlidir. Məhz 1988-ci ilin yanvarından etibarən "türksüz Ermənistan" siyasəti planlı şəkildə həyata keçirlməyə başlandı. Bu siyasətin daşıyıcıları, iştirakçıları, ideya müəllifləri öncə ermənilərin kilsəsi, sonra isə Ermənistan hökuməti və bu ərazidə yaradılmış "Qarabağ" və "krunk" komitələri idi. Yaradılmış bu birliklərin təmsilçiləri o vaxtkı Moskvanın himayəsi ilə türkləri-azərbaycanlıları öz əzəli torpaqlarından qovmağa nail oldular.***

Nəticədə ermənilər 185 yaşayış məntəqəsini, 250 mindən artıq azərbaycanlını və eləcə də burada yaşayan 18 min kürdü yurdundan didərgin saldı. Əgər həmin dövrün tarixi statistikasına nəzər yetirsək, onda görərik ki, ermənilər öz elini, öz yurdunu tərk etməyən soydaşlarımıza hansı işgəncələri verib, onları hansı əzablara məhkum ediblər. Rəqəmlərdən bəlli olur ki, ermənilər təkcə döymək üsulu ilə 41 nəfərin həyatına son qoyub, 35 nəfərə qeyri-insani işgəncələr verməklə, 115 nəfəri yandırmaqla, 16 nəfəri güllələməklə, 2 nəfəri xəstəxanada həkim tərəfindən dərman vasitəsilə öldürməklə soydaşlarımızı qorxutmağa, yurdundan-yuvasından qaçqın düşməyə məcbur ediblər. Nəticədə bu insanlar Azərbaycana üz tutmağa məcbur olublar. Təəssüf ki, bütün bunları seyr edən Moskva, yəni Sovetlər İttifaqının rəhbərliyi yalnız təsəlliverici çağırışlar etməklə öz işini görüb bitiribdi. Bunun əvəzində isə daha çox Azərbaycan Respublikasında hadisələrin gedişinə etiraz edən ziyalıları, fəalları nəzarətə götürmək, onlara təyziqlər yolunu tutublar. Hətta insanların ağır durumunu çözmək əvəzinə Azərbaycanda, xüsusilə onun Dağlıq Qarabağ və Ermənistanla sərhəd bölgələrində fövqəladə vəziyyətlər elan olunubdu.

Ölkə tarixinin həmin dövrünə diqqət yetirəndə Azərbaycan Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyevin Şuşanın işğaldan azad edilməsi münasibətilə xalqımıza etdiyi müraciətdə söylədiyi fikirlər yada düşür. Ölkə prezidenti bir daha üzünü dünya ictimaiyyətinə və soydaşlarımıza tutaraq bildirmişdi ki, "Biz bu qələbə ilə bir daha sübut etdik ki, öz doğma torpağmıza qayıtmışıq. Bu torpaq əzəldən də bizim olub, bu gün də bizimdi, min illər bundan sonra da bizim olacaqdı!". Elə bu fikirlərin ardında onu da vurğulamaq istəyirəm ki, bu günlərdə azad olunmuş Şuşaya səfər edən ölkə prezidenti vurğuladı ki, "Mən buradayam. Biz buradayıq. Biz bura qalib kimi gəlmişik. Öz torpağımıza gəlmişik və buradan da bəyan edirəm ki, heç kim dəmir yumruğu unutmasın. Bizim öz torpaqlarımızı müdafiə etməyə, onu qorumağa kifayət qədər gücümüz var. Kimsə başqa xəyallara düşərsə, o, öz cavabını alacaqdır!"

**Bəli, cənab Prezidentin də söylədiyi kimi, bu gün Azərbaycan dünayaya kimin işğalçı olduğunu və problemin mayasında nəyin dayandığını həm faktlarla, həm də öz azadlıq və Zəfər müharibəsi ilə sübut etdi. Bu gerçəkliyin əsgəri Azərbaycan Ordusu və komandanı ölkə Prezidentidi.**

*Əbülfət MƏDƏTOĞLU*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə yardımı ilə

# Son musiqi

**Söhbəti duzlu - məzəli, səmimi insan idi. İstedadlı idi. Gözəl gitara çalırdı. İncəsənət Universitetini bitirmişdi. İxtisasca rejissor idi. Tamaşalar hazırlayır, səhnəyə qoyurdu.Yaxşı oğul, yaxşı qardaş və kamil insan idi. Elə ağızdolsusu, həyati danışırdı ki... Məclislərin yaraşığı idi Məzahir Əyyub oğlu Mehdiyev.**

Kəndlərindəki Mədəniyyət evinin, sonra uzun müddət Yaqub Məmmədov adına Ağcabədi şəhər Mədəniyyət evinin direktoru kimi çalışmışdı. Son zamanlar Qarabağ Muğam Mərkəzində rejissor işləyirdi.



...Biz ölümün qaşla göz arasında olmasını təsdiqləyirik. Ölüm isə əslində elə doğulandan başımız üzərində pərvanətək fırlanır. O, bizim düşünən beynimizdə, döyünən ürəyimizdə olur. Əbəs yerə demirik ki, olumdan ölümə olan yol bir addımlıqdır.

Və sən bir dünyanın işinə bax. Dünəndən duzlu söhbətlərini ürəklə dinləyən mən, indi haqqında danışanda keçmiş zamanda danışıram. Dünənlə bu gün arasında olan fərq adamı yandırır.

Dünən üstündə gəzdiyin ana torpağın, bu gün qucağında,ağuşundasan. Çünki təmənnasız, vaxtsız gələn ölüm kabusunun qurbanı oldun. Sən də qoşuldun sonsuzluğa üz tutan ölüm karvanının sırasına. Bizlərin dərdi artdı, çoxaldı. Nə bilim, bəlkə də ilk əvvəllər dərd adlı sitəm olmayıb. Ehtiyacın düşünməyə vadar etdiyi insan dərdi kəşf edib, tapıb ki, darıxmasın. Həyata yeni bir rəng qatsın. Özü də qəribədir bu dünyanın işi. Dərd bütün ömür boyu bizimlə yanaşı addımlayır. Yaxamızdan əl çəkmir. Və nədənsə, dərd heç cür müalicə olunmur. Yoxa çıxmır. Elə həmişə bizimlə olur...

Dünyanın özü də qəlibə bənzəyir. İnsan qəlbinin qəlibinə. Sonda, axırda hara getsək də, biz bu qəlibə girməli oluruq.

Ölçüsüz idi Məzahirinböyüklüyü. Onun dərrakəsi, əqli, istedadı heç bir ölçüyə (dəqiq), qəlibə sığmırdı. O, bilirdi ki, insan ölçülü olanda adiləşir, cılızlaşır.

Birdən əsəbiləşir, dünyanı qatırdı bir birinə. Cəmi bir neçə dəqiqədən sonra olurdu ipək kimi. Yumşaq, incə qəlbli bir insan. Kindən, küdurətdən uzaq idi. Ancaq xeyirxahlıq, yaxşılıq etməyi bacarırdı.

Bilirəm, bilirəm ki, hərə bir cür ölümün qurbanı olur. Və ölüm uyuyan ölümsüzün yorğanı olur. Ancaq bu bir misqal da təsəlli vermir adama.Dünya nə qədər böyük olsa da, dünyanı insan axını doldursa da yerin görünür qardaş. Yerin boşdur. Sən dolu olan o yeri boş qoydun getdin, Məzahir qardaş!

Qəfil, bir söz demədən, vaxtsız getdin. Ölümündən bir neçə saat əvvəl çoxdan çalmadığı gitaranı əlinə alıb, onu dilə gətirdi, əməlli-başlı ağlatdı. Və getdi. Təkcə gitaranı ağlatmadın, Məzahir. Yaxınlarını, dostlarını, sirdaşlarını da ağlatdın bu son musiqisi ilə. Sənin kimi təmiz bir insanı itirmək çox çətindir.

**Məzahir el ağsaqqalı, 1941-1945-ci il müharibəsinin fəal iştrakçısı, qəhrəman kəşfiyyatçı olan atası Əyyub Mehdiyevin yanında, üzü atasına tərəf torpağa tapşırıldı... Nə bilim, ölümün labüdlüyü çox zaman adamı elə yandırır ki, lap dəli olursan. Bu amansız ölümün növbəti qurbanı bizim Məzahir oldu. Fikirləşəndə adamın tüstüsü təpəsindən çıxır...**

**Adil Misirli**

# BİR QƏFƏSİN İSTİSİ

**Bütün canlılar yaşamaq istəyir. Ən azından ona görə ki, Allah-Təala onları yaradanda onlar üçün şərait də yaradır. Yəni onlar təbiətin gözəlliklərindən, füsnkarlığından, odundan, alovundan, istisindən, soyuğundan və baharından istifadə eləməlidilər. Yəni o canlılar yaşamaq üçün həyatda qalmaq üçün, mübarizə aparmaq üçün nə lazımdısa onu da etməyə məcburdular. Canlıların arasında quşların öz yeri var. O quşlar ki, təbiətə, dünyamıza və həyatımıza bir gözəllik qatırlar, bir rəng gətirirlər, bir qeyri-adi mənzərə yaradırlar.**

Təbii ki, hər quşun öz ömrü, öz şəraiti, öz yaşam tərzi var. Adətən güclü quşlar, qüvvətli quşlar istər yayın istisində, istərsə də ən yüksək vaxtında belə yaşamağın yolunu tapırlar, özlərini çətin, mürəkkəb, ağır vəziyyətdən xilas edirlər. Amma elə quşlar da var ki, onlar insanların, cəmiyyətin sevgisinə, məhəbbətinə, istəyinə belə deyək məhkumdular. O quşlar harda insan nəfəsi varsa, harda insan əli varsa, onun sayəsində ağır qış fəslindən, qardan, çovğundan, aclıqdan, yalavaclıqdan qurtara bilirlər. Təbii ki, bütün quşlara insanlar təminat verməli deyil, onların hamısını qoruya bilməz. Amma biz yaşadığımız cəmiyyətdə, olduğumuz yerdə o quşları qışın soyuğundan, qarından, şaxtasından qoruya bilərik.

### *Bu yaxınlarda*

***yolum filarmoniya bağına düşmüşdü. Orda 50-60 ilin ağaclarına aşağıdan yuxarı baxanda diqqətimi qeyri-adi bir mənzərə cəlb elədi. O mənzərə ki, uzun illərdi mən heç Bakının parklarında, bağlarında o mənzərəni görməmişdim. O mənzərəni gördüm və sevindim ki, nə yaxşı bizdə də insanlar bu barədə düşünür, çıxış yolu tapır və o quşlar üçün şərait yaradırlar. Neçə-neçə gövdəli hündür ağacda o bağda mən quş qəfəsləri gördüm. Və o quş qəfəsləri qeyri-adi bir qəfəsə bənzəsə də, hər halda o qışın soyuğundan o quşları qoruya bilər.***

O qəfəsə iri quşlar yox, ancaq balaca quşlar daxil ola bilərlər. Bizdə də ən çox xırda quşlar, qaranquşlar, sərçələr və digər quşlar qışın soyuğunda soyuqdan qorunmaq üçün isti yer axtarırlar, isti ocaq arayırlar. Bəzisi o isti yeri tapır, bəzisi isə o isti yeri tapmadığına görə soyuqdan, şaxtadan donurlar. O qədər quş cəsədi görmüşəm ki. Xüsusən qarlı, şaxtalı, soyuq havada həmin quşlar soyuğa tab gətirməyərək ölürlər. Amma o isti qəfəsləri görəndən sonra bir balaca ürəyimdə rahatlıq yarandı ki, nə yaxşı belə bir qəfəslər düzəldilib, belə bir insanlar qeyri-adi humanist addımlar atıblar ki, o quşlar da yaşasınlar. Bu təşəbbüsü, bu sevgini, bu istəyi əlbəttə, alqışlamaq lazımdır. Bir parkda



deyil, Bakının, şəhərlərimizin, küçələrimizin hər yerində belə bir təşəbbüslə çıxış etmək olar ki, qar yağanda, şaxtalı günlərdə o quşları qorumaq üçün qəfəslər olsun.

### *Mən neçə-neçə adam tanıyıram ki,*

***həyatində də belə qəfəslər düzəldiblər. O qəfəslərdə mən hər gün o quşların səsini eşidir, onların uçuşunu görür və o quşların orda sığındığını hiss edirəm. Ümumiyyətlə, təbiətdə həmişə heyvanlara, quşlara qarşı böyük bir sevgi yaranıb. Çox uzağa getməyək, hər dəfə işə gedəndə AMEA-nın qarşısındakı parkda çox maraqlı bir mənzərənin şahidi oluram. O mənzərənin ki, orda çoxlu sayda göyərçinlər olur və çoxlu sayda göyərçinlərə könüllülər gəlib orda dən səpirlər, onlara yem verirlər. Və bəzən onların səpdiyi dənin ətrafına minlərlə quş toplanır və o quşlar insanların sevgisini görərək, məhəbbətini görərək onlara yaxınlaşırlar, onların yanında hərəkət edirlər və bilirlər ki, doğurdan da o quşlara heç kim zədə toxundurmayacaq, o quşları heç kim incitməyəcək.***

Təbiət belədi, onu sevərsənsə, qoruyarsansa, o təbiət də sənə xidmət eləyər, səni sevər, səni qoruyar. Bu mənada qış günlərində, xüsusilə də qarlı, şaxtalı havalarda o quşları qorumaq hər bir insanın borcudu. İndi qabaqdan 21-22 sinoptiklərin verdiyi məlumata görə, qarlı qış günləri gələcək. Həmin günlər Bakıda qar yağacaq, şaxta düşəcək, havanın temperaturu mənfi 2-3 dərəcəyə enəcək. Əvvəlki vaxtla müqayisədə 10-15 dərəcə aşağı düşəcək. Belə bir şəraitdə təbii ki, quşların vəziyyəti soyuqdan çətin anlarla üzləşə biləcək. Aydındır ki, belə şəraitdə, belə məqamlarda o sahibsiz quşlara yiyə durmaq lazımdır, onlara heç olmasa imkan daxilində öz eyvanına qonan o quşlara dən tapa bilməsə də, çörək ata bilərlər, başqa yem verə bilərlər ki, həmin quşlar, həmin pənah gətirən canlılar sevinsinlər.

Biz bütün canlıların yaşamaq uğrunda necə mübarizə apardıqlarının şahidi olmuşuq.

Onlar bəzən qarlı qışda, şaxtalı havada öz balalarını xilas etmək üçün yem axtarırlar, ora-bura özlərini çırpırlar. Amma yem tapa bilməyəndə bir də görürsən ki, o quşlar ac-yalavac qayıdır, üstəlik də ac olmaqla yanaşı, qarlı, şaxtalı havada məhv olurlar.

Əlbəttə, insanlar istəsə o quşları bu cür mürəkkəb hava şəraitində xilas eləyə bilərlər, onları qoruya bilərlər, onları sevə bilərlər. Biz o quşlar üçün imkan daxilində isti qəfəslər təşkil edə bilsək, onlara yem verə bilsək, onlara əl tuta bilsək, o quşlar da bu şaxtadan, bu qardan, bu soyuqdan çıxa bilər, üzü yaza yaşaya bilərlər. Əlbəttə, hər bir canlının yaşamaq haqqı var, yaşamaq hüququ var. Və o canlılar da bir-birinə kömək eləməlidir.

### *İnsan da bəşəriyyətin əşrəfi olduğuna görə,*

***Allah-Təala ona həm şüur, həm imkan, həm də madiyyət verib. Və biz bu imkanımızla, bu düşüncəmizlə, bu sevgimizlə Allahın bizə verdiyi bu gözəlliklərdən istifadə eləyərək, təbiətin bir parçası olan, ona gözəllik gətirən o sahibsiz quşlara bu qış günlərində kömək dursaq, onlara dən versək, onlara isti qəsəf yaratsaq, onlar da yaşaya bilərlər.***

Onlar da birmənalı olaraq, həyatlarını davam etdirmək imkanına malik ola bilərlər.

Deməli, burdan belə çıxır ki, biz hamımız təbiəti sevdiyimiz kimi, ağacları, çayları, gölləri və meşələri sevdiyimiz kimi, o quşları da sevməliyik, xüsusən də soyuq günlərdə o quşlar sığınacaq axtaranda, yem axtaranda onları ümidsiz qoymayaq. Həyətimizə gələn, eyvanımıza qonan qapımızı döyəcləyən o quşlara çox yox, bir çimdik dən atmaq da, bir tikə çörək atmaq da çox savabdı.

Çünki biz onu eləyiriksə, Allah-Təala da onun qarşısında bizə başqa sevgi verir. Allah hamıya kömək olsun ki, bütün insanlar yaşasın, həyatlarını, ömürlərini sevgiylə, məhəbbətlə davam etdirsin.

Və hər bir canlının da yaşamaq hüququ var. O mənada təbiətimizə zənginlik və gözəllik gətirən quşları da qorumalı, sevməli və imkan daxilində onlara kömək göstərməliyik ki, onlar növbəti yaza sevgiylə qovuşa bilsinlər.

**Hər yaz gələndə bütün təbiət sevindiyi kimi, quşlar da sevinir. Çünki onlar qarlı, şaxtalı, soyuq qışdan üzü yaza, isti havaya çıxırlar, isti yuvada, isti qəfəsdə təbii ki, soyuqdan qorunaraq yaza çıxmaq çox gözəl bir xoşbəxtlikdi. Allah-Təala bu xoşbəxtliyi heç bir canlısından əskik eləməsin. Gəlin quşları qoruyaq ki, onları çətin vəziyyətdən çıxaraq ki, Allah-Təala da bizi çətin vəziyyətdən çıxarsın.**

**Faiq QİSMƏTOĞLU**

# Niderlandlı jurnalistdən UEFA-ya həqiqət dərsi

**"Qarabağ"ın mətbuat xidmətinin rəhbəri Nurlan İbrahimova UEFA tərəfindən verilən ağır və haqsız cəzanın azaldılması ilə bağlı işlər davam etdirilir.**

Qitə futbol qurumu məsələ ilə bağlı apellyasiya şikayətini rədd etsə də, hüquqi həll imkanları qalır.

Hələ İdman Arbitraj Məhkəməsi (CAS) də şikayətə baxmalıdır. Dəfələrlə son mərhələdə CAS-ın ədalətli qərar vediyinin, müdafiə olunan tərəfin haqqını qoruduğunun şahidi olmuşuq. Elə Nurlan İbrahimovun vəkili Fərid Haqverdiyev də bir neçə gün əvvəl açıqlamasında məsələnin ədalətli həll yollarının tükənmədiyini bildirmişdi.

Nurlan İbrahimovun məsələsi ilə bağlı son durum hələlik qeyd etdiklərimdir.

### Diqqət çəkən bir məqam

***isə vəkil Fərid Haqverdiyevin Feysbukdakı paylaşımıdır. Hansı ki, niderlandlı jurnalist Artur Huzinqa Nurlan İbrahimov haqda fikirlərini bildirib. Deməli, avropalı bir jurnalist Nurlan İbrahimovla bağlı elə sözlər işlədib ki... Yaxşısı budur ki, özünüz tanış olun:***

Sitat: Bir statusa görə, futbol aləmindən kənarlaşdırılmağı haqq edirmi? Əlbəttə ki yox...

"Qarabağ" çox kiçik büdcəyə malik hər anlamda qaçqın klub idi... Hazırda gördüyünüz əzəmətdən heç bir əsər-əlamət tapa bilməzdin. Amma klubun hər zaman bir məqsədi var idi. Bir klubun arzusu yəqin ki, medallar ola bilər. Amma "Qarabağ"ın əsas məqsədi Qarabağ həqiqətlərini dünyaya çatdırmaq və məlum konfliktin həll olunmasına hər hansı bir formada dəstək olmaq seçilmişdi.

***"Qarabağ"da ilk tanıdığım adamlardan biri, bəlkə də birincisi Nurlan olub. İbrahimov "Qarabağ" klubu ilə yanaşı, Qarabağ həqiqətlərinin dünyaya, əcnəbilərə çatdırılmasına bir diplomat kimi, səbirlə, təmkinlə hər zaman çıxış edib və ön planda olub. Bunu Azərbaycana etdiyim çoxsaylı səfərlərdə görmüşəm. Nurlanı tanıdığım 10 il ərzində heç bir zaman bu həqiqətlərin parlamasına çalışmaqdan yorulmadı, əksinə zövq aldı.***



Futbol ailəsinə daxil olan hərkəsə - UEFA nümayəndələrinə, hakim-inspektorlara, Azərbaycana gələn əcnəbi jurnalistlərə dayanmadan Qarabağ həqiqətlərindən danışırdı, "Qarabağ" klubunun əsas qayəsinin, amalının əsas təmsilçisi olurdu. Klubun ən kasıb vaxtında belə "Qarabağ"ın, viran qalmış Ağdam təmsilçisinin Çempionlar Liqasının qrup mərhələsində oynayacağına bütün varlığı ilə inanırdı. Bəlkə, Nurlan Qarabağda doğulmayıb, amma həyatının əsas hissəsini Qarabağ həqiqətlərini dünyaya çatdırdığı üçün əsl qarabağlıdır. Bunu ürəyimin bütün dərinliklərindən gələn bir səslə deyirəm. Klubun az büdcə ilə, balaca və darısqal otaqlarda çalışıb bu gün xəyal etdiyi bir vaxtlardan Nurlanın böyük ürəyi Qarabağ həqiqətlərinin təbliğatı üçün atırdı.

### Özünü bir ideologiyaya

***həsr edən və onun üçün mübarizə aparan insanlar ən çətin vəziyyətlərdə belə yollarından dönmürlər. Nurlan kimi... O, ən çətin məqamlarda belə əsl ideologiyasını unutmadı - yəni Qarabağ həqiqətlərinin dünyaya çatdırılmasını".***

Başqa bir millətin nümayəndəsinin bu cür səmimi, ürəkdən gələn və həssaslıqla fikirlər səsləndirməsinin təbii ki, bir səbəbi var - Nurlan İbrahimovun işində dürüst, insansevər, vətənpərvər və digər müsbət keyfiyyətlərə sahib olması.

Peşəkar Futbol Liqasının mətbuat xidmətinin rəhbəri Aslan Şahgəldiyevin də dostluq, yoldaşlıq bir yana, ilk növbədə bir azərbaycanlı kimi, Huzinqanın fikirlərindən təsirləndiyi hiss olunur. Onun fikirlərini də diqqətinizə çatdırmaq yerinə düşər:

***"Artur Nurlanı məndən yaxşı tanıyıb, əla yazıb. Mən Nurlanı 20 ilə yaxındır ki, tanıyıram, sən demə heç tanımamışam. Arturun yazdığını oxuyandan sonra daha yaxşı tanımağa başlayıram. Artura Qarabağ problemini, komandanın niyə Ağdamda oynamadığını Nurlan izah edib, Azərbaycana qarşı sevgi aşılayıb ona. Hər bir vətəndaş öz milləti haqqında fikir formalaşdırır, Nurlan da yaxşı insan olub ki, Artur bizi sevib.***

UEFA Nurlanın apellyasiya şikayəti verməsinin hələ ki, qarşısını alır. Dünyanın ən qatı cinayətkarına, terroristinə belə apellyasiya vermək hüququ verirlər. Hələ status yazıb, heç nə etməyib, gör eləsə nə olardı... "Qarabağ" ölkə futbolu üçün, elə ökənin özü üçün də böyük iş görüb. Necə deyərlər başından yuxarı tulanıb. Düşünürəm ki, Nurlanın da bu sıçrayışda payı var. "Qarabağ" Nurlanla birgə daha da irəli gedəcək.

### Nurlan rəhbərliyin dəstəyi ilə

məhkəmədə qalib gələcək, çox inanıram buna. Məşqçisi, futbolçusu, idarə heyəti, rəhbərliyi ilə "Qarabağ" böyük klubdur. Böyüklük sona qədər haqqın yanında olmaqdır. Ümidvaram ki, hər şey dünyanın ən yaxşı mətbuat xidmətinin qələbəsi ilə bitəcək və Nurlan Arturlara ölkəmizi bundan sonra da sevdirəcək".

***Həqiqətən də Nurlan "Qarabağ"ın bu uğurlarında görünməyən qəhrəmanlardan biri olub. Komanda oyunu ilə Qarabağın Azərbaycan olmasını dünyaya çatdırıbsa, İbrahimov da bu həqiqətləri öz işi ilə, kreativ ideyaları ilə bəyan edib.***

Klubla media arasında sağlam münasibətlərin qurulmasında və daima qorunmasında da onun əməyi danılmazdır. Buna görə də mətbuat nümayəndələrinin gözündə "Qarabağ"ı Nurlansız təsəvvür etmək çətindir. "Qarabağ" da öz növbəsində həmişə Nurlana dəstək olub. Elə bu məsələdə də öz əməkdaşına sahib çıxdı. İnanırıq ki, klub sona qədər onun yanında olacaq, dəstəyini əsirgəməyəcək.

**Elecə də bu məsələdə AFFA-nın köməyi, UEFA-ya təsiri də zəruri olardı. Hər halda, unutmayaq ki, Nurlan İbrahimov Vətən müharibəsindəki mövqeyinə görə sərt cəzaya məruz qalıb. Qərarı yumşaltmaq isə futbol qurumlarının mənəvi borcu olmalıdır.**

**Ramiq AĞAMƏMMƏDOV**
**Qol.az**

---

ADİL ŞİRİN

## ŞƏHİD GECƏYƏ ÜÇ ELEGİYA



**- I -**

**Qara bayraqdı göy üzü,**
**qar üstündə qan izi...**

**Qaranlığı tapdalayır,**
**qanlı, yalın ayaqlar.**
**Ölüm çiçəyi açır**
**cadar-cadar torpaqlar.**

**Tank tırtılı altında,**
**inləyir igid gecə.**
**Çiyin-çiyinə yeridik,**
**ölümdən keçə-keçə.**

**Qara bayraqdı göy üzü,**
**qar üstündə qan izi...**

**Çiyin-çiyinə yeridik,**
**Ay-ulduzlu**
**bayraqların altında.**
**Eyni tale yazılmışdı**
**hamımızın alnında.**

**- II -**

**Uçmaq üçün doğulmuşdu,**
**bir qanadlı quş olmuşdu.**
**Qırıldı qolu qanadı,**
**dilində sözü qanadı.**

**Allah kimindi bu uşaq?**
**Qançır-qançırdı dil-dodaq.**
**Qucaqlayıb nəm torpağı,**
**gözləri elə bil oyaq.**

**Sinəsini deşib süngü,**
**açılan lalədi sanki.**
**Göy üzü qürbətdi ona,**
**ruhu canından sürgün.**

**On dörd-on beş yaşı olar,**
**gözümdə göz yaşı olar.**
**İndən belə bu dünyada**
**mələklərə qardaş olar.**

**- III -**

**Dağ başında günəş doğur,**
**Günəş doğur- qan qırmızı.**
**Ana Vətən, Ana Vətən,**
**özün sarı yaramızı.**

**Al qanımız halal olsun,**
**bu yurdun hər qarışına.**
**Şəhidlərimiz qaldırıb,**
**Günəşi dağ başına.**

**Yaramızı sarıyanda**
**bir gün Anamız Vətən.**
**Onda sənin yarandan**
**öpəcəm qardaşım mən.**

---

# "Qəhər məni boğurdu"

## Zəngilan təəssüratlarını danışır

***Çox az hallar olar ki, mən nəyinsə təsirinə düşərəm və uzun müddət çıxmaram. Ki, bu dəfə də bir reportaj məni kövrəltdi və hər gün həmin reportaja baxmaqdan doymuram. Onunla müsahibə etməyimə səbəb də məhz hazırladığı reportajdır. O qədər təsirlidir ki..."Ədalət" qəzetinin qonağı ATV-nin İdman xəbərlərinin aparıcısı, xüsusi olaraq Zəngilandan repotaj hazırlayıb minlərlə insanın qəlbinə yol tapan Vüsal Qurbanovdur.***

**-"Röyamda gördüm səni, Çağırırdın hey məni"...Bu illər ərzində Zəngilan tez-tez yuxunuza girirdi?**

-İlk olaraq onu deyim ki, "Zəngilan" mahnısı mənim ürəyimdən, hisslərimdən xəbər verir.

Həqiqətən, Zəngilanı, evimizi, məhləmizi xatırlayıram o mahnını dinləyəndə.

Zəngilanı yuxularımda tez-tez görürdüm. Hətta evdə danışanda da ki, Zəngilanı bu gecə yuxumda gördüm, deyirdilər ki, necə olur ki, sən tez-tez yuxunda görürsən? Məcburi köçkün olan qohumlarımdan, dostlarımdan soruşurdum ki, sizdə də olur bu hal? Söyləyirdilər ki, xeyr.

Reportajı çəkməzdən öncə, Zəngilana gedib-getməyəcəyim bəlli deyildi, mahnı axtarırdım Zəngilana aid. Zakir Əliyevin ifasında olan "Zəngilan" mahnısı qarşıma çıxdı və bəyəndim:

*"Mənə qaçqın söyləmə, adımı düzgün çağır,*
*Arazı üzdüm keçdim, adımı üzgün çağır".*

Şair bu misraları dərin hisslərlə yazıb. Bu şeirin yazılma tarixi 20 ildən çoxdur.

Yəqin ki, məcburi köçkün düşəndən sonra yazıb. O zamanlar "qaçqın" kəlməsini heç kim istəmirdi ki, ona deyilsin. Sanki bu ifadə bir damğa idi. İnsanlar o sözə qarşı çox həssas idi. Balaca olsam da, bunu duyurdum. Məktəbdə, başqa yerdə deyiləndə ki, bu uşaq qaçqındır, pis təsir edirdi.

Zəngilanlılar Cəbrayılın və Qubadlının işğalından sonra təqribən iki ay mühasirədə qalıblar. Daha sonra Araz çayını keçməyə məcbur olublar. Mənə deyilənlərdən bilirəm, o qədər qocaları, körpələri çay aparıb ki...

### "Zəngilanı yuxularımda tez-tez görürdüm"

**-Vüsal bəy, Zəngilandan çıxarılanda nəsə götürmüşdünüz özünüzlə?**

-Atamın yük Kamazı vardı ki, onunla bəzi əşyalarımızı götürmüşdük. Biz Arazı keçməmişik. Bunun səbəblərini də izah edim. Atam həmin Kamazla Bakıdan Zəngilana yük daşıyırdı. Zəngilan mühasirədə idi. Hər gün atəşə tuturdular.

Zəngilanda uzun müddət idi ki, işıq yox idi. Ona görə ki, ermənilər evi işıqlı görüb vurmasınlar. Ermənilər Zəngilanı çox atəşə tutduqları və atam Bakıda olduğu üçün bizi də işğaldan 15-20 gün əvvəl Bakıya gətirmişdi.



**-Mən məcburi köçkün olan hansısa məşhur bir sima, bir xanəndə və ya başqa sənət nümayəndəsi ilə müsahibə edəndə onlar deyirdilər, inanırıq ki, bir gün torpağımıza ayağımız dəyəcək. Amma bunun tezliklə olacağına kimsə inanmırdı. Ali Baş Komandanın uğurlu siyasəti, Müzəffər Ordumuzun səyi nəticəsində biz torpaqlarımızı yağı düşməndən azad etdik. Həmin gün-"Zəngilan bizimdir, Qarabağ Azərbaycandır!" cümləsini eşitdiniz an, yəqin ki, duyğulandınız...**

-Əvvəllər hamı çox inanırdı. Adam vardı, qapısını qıfıllayıb gəlmişdi ki, onsuz da tezliklə geri qayıdacağıq.

İllər uzandıqca, ümid var idi, amma güman azalırdı. Ki, nə vaxt geri dönəcəyik, necə olacaq? Bax bu suallar yaranırdı. O ki, qaldı, "Zəngilan bizimdir, Qarabağ Azərbaycandır!" cümləsini eşitdiyim məqama, mən idman jurnalisti olsam da, döyüşlər başlayanda rəhbərliyə müraciət etdim ki, cəbhə bölgəsinə çəkilişlərə getmək istəyirəm.

Çox sağ olsunlar ki, göndərdilər. Gəncədə baş verən terrorları çəkib göstərdim, Goranboyda, Cəbrayılda, Füzulidə oldum. Zəngilanın alınması xəbərini Ali Baş Komandan elan edəndə biz Gəncədə idik.

Həmin an necə hayqırdığımı oradakı dostlar bilir. Onlar eşitdilər, onlar gördülər.

Cənab Prezident elan etdikdən 3-4 dəqiqə sonra mənim "ATV Xəbər"ə canlı bağlantım oldu. Həmin videogörüntüdə özümü güclə saxladım ki, ağlamayım. Çox kövrəlmişdim. Həmin bağlantı zamanı da demişdim ki, Zəngilanı yuxularımda tez-tez görürdüm *(köksünü ötürür)*.

### "İki gün o qədər qısa gəldi ki"

**-Bilirəm, sözlərlə ifadə etmək sizə çətin olacaq. Amma 6 yaşından çıxdığınız, daha doğrusu, məcburi çıxarıldığınız yurdunuza ayağınız yenidən dəyəndə hansı hissləri keçirdiniz?**

-6 yaşımdan çıxdığım Zəngilanı görəndə məğrur idim, qürurlu idim, sevincli idim. Sevincdən qəhər məni boğurdu. Duyğularım bir-birinə qarışmışdı. Özüm də bilmirdim ki, nə hisslər keçirirəm. Zəngilana yaxınlaşdıqca qəribə olurdum, Arazı gördükcə qəribə olurdum. Orada Mincivandan Zəngilana gedən yol var, biz onun yaxınlığında düşdük. Məhz həmin yolu tanıdım. O yolda çinar ağacları vardı. Əfsuslar olsun ki, ermənilər onu kəsib aparıblar. Çox az sayda ağac qalıb.

**-Reportajınızda belə bir cümlələrniz oldu: "Çay daşından tikirdik. Atam öz əlinin zəhməti ilə tikdirdi". Məhz o cümlələr reportaja emosional bir ton verdi ki, iki cümlə ilə demək olar, ağrıacılarınızı izah etdiniz...**

-Biz Zəngilanda bir gecə qaldıq. Evimizə səhəri gün getmişdim. Sonuncu olaraq gedib həyətimizi tapmışdım. Bir anlıq hər şey mənim üçün alt-üst oldu. Tanıya bilmirdim, tapa bilmirdim ki, hansı evin divarı bizimdir, hansı evin divarı başqasının. Evimizi tapanda hər şey gözümün önündən lent kimi gəlib keçdi. Həmin gün Bakıya qayıtdım. Evə gəldikdən sonra hər şey mənə yuxu kimi gəldi ki, doğrudanmı, mən Zəngilanı gördüm?!

İki gün o qədər qısa gəldi ki. Dərk edə bilmirdim ki, 27 il sonra mən Zəngilanda olmuşam. Evə qayıtdıqdan 1 gün sonra yenidən hər şeyi təhlil etdim, müqayisələr apardım. Kaş ki hər şey mənim uşaqlıqda yadımda qalan kimi olardı. Zəngilanı mümkün qədər talayıblar. Həyətimizdə olan tut ağacına qədər kəsiblər.

**-"Vüsal Qurbanov, ATV Xəbər xüsusi olaraq Zəngilandan"...Mən sizin simanızda bütün Zəngilanlılara öz ata-baba torpaqlarına tezliklə qovuşmalarını arzu edirəm. Hər biri getsin və "Zəngilandayam" kəlməsini dilinə gətirsin. Dəvətimi qəbul etdiyiniz üçün təşəkkür edirəm...**

-Mən sizə dəvətiniz üçün təşəkkür edirəm. Elə mən də bütün Zəngilanlılara tezliklə doğma torpaqlarına qayıtmalarını arzu edirəm. İnanıram ki, bir neçə aydan sonra hər kəs gedib oraları görəcək.

Gələndə hamı məndən təəssüratlarımı soruşurdu. Hətta deyirdilər ki, orada yaşayacaqsanmı? Bəli, mən gedib Zəngilanda yaşayacam. İnşaAllah, hər şey qaydasına düşsün, mən orada yaşayacam. O Həkəridən, Oxçu çaydan, Arazdan qarmaq atıb balıq tutacam *(səsi titrəyir)*.

Bunlar gözəldir. Mənim xəyalımda elə qalmışdı ki, Oxçu çayının eni 15 metr olar, amma gördüm ki, ən ensiz hissəsi belə azı 15 metrdir. O çaylar bol sulu çaylardır. Hər zaman Vətənimizin bol nemətli, çörəkli olması diləyilə Vüsal Qurbanov, "Ədalət" qəzeti üçün.

**Rövşən Tahir**

---

### *Messi ağır cəzalana bilər*



*"Barselona"nın kapitanı Lionel Messini ağır cəza gözləyir.*

*Qol.az xəbər verir ki, İspaniya superkubokunun finalında "Atletik"in oyunçusu Asyer Vilyalibreninin başına arxadan zərbə vuran 34 yaşlı hücumçu Əsasnaməyə görə 4-12 oyunluq cəzalandırıla bilər.*

*Qarşılaşmanın bitməsinə bir dəqiqə qalmış - 120+1-ci dəqiqədə Messi qırmızı vərəqə alaraq meydandan qovulub. Bu, argentinalı futbolçunun klub karyerasında ilk qırmızı vərəqəsidir.*

*Qeyd edək ki, "Atletik" final matçının əlavə vaxtında "Barselona"ya 3:2 hesabı ilə qalib gəlib.*

### *"Çelsi"dən Holanda rekord məbləğdə təklif*

*"Çelsi" "Borussiya"nın (Dortmund) futbolçusu Erlinq Holandı transfer etməyi planlaşdırır.*

*Qol.az xəbər verir ki, norveçli hücumçu yay transfer dönəmində London təmsilçisinin əsas hədəfi olacaq.*

*"Çelsi" 20 yaşlı forvardı heyətinə qataraq transfer rekordunu yeniləyə bilər. Hazırda klub tarixinin ən bahalı transferləri 80 milyon avroya alının Kay Haverts və Kepa Arrisabalaqadır.*

*Qeyd edək ki, Erlinq Holand 2019-cu ilin dekabrında Avstriya "Zaltsburq"undan "Borussiya"ya keçib*

### *Zidandan antirekord*



*Son oyunlarda uğursuz çıxış edən "Real"ın baş məşqçisi Zinəddin Zidan antirekorda imza atıb.*

*Qol.az xəbər verir ki, İspaniya superkubokunun yarımfinal mərhələsində "Atletik"ə məğlub olaraq (1:2) mübarizəni dayandırdığı oyun Madrid klubunun cari mövsümdəki 25-ci matçı olub.*

*"Real" bu oyunların 14-də qalib gəlib, 6 dəfə məğlub olub və 5 dəfə bərabərliyə razılaşıb. Bu göstərici baş məşqçi Zinəddin Zidanın fəaliyyəti dövründə ən pis başlanğıcdır.*

*Qeyd edək ki, La Liqada 18 oyundan sonra 37 xal toplayan "Real" turnir cədvəlinin 2-ci pilləsindədir.*

---

### *AMEA Azad Həmkarlar İttifaqının və ilk həmkarlar təşkilatlarının fondundan Qarabağ Dirçəliş Fonduna vəsait köçürülmüşdür*

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il fərmanı əsasında yaradılmış Qarabağ Dirçəliş Fondu yaradılmışdır.**

AMEA Azad Həmkarlar İttifaqının və ilk həmkarlar təşkilatlarının fondundan Qarabağ Dirçəliş Fonduna 20.000 (iyirmi min) manat məbləğində vəsait köçürülmüşdür.

---

### "Milan"ın futbolçusu "Parma"da



**"Milan"ın futbolçusu Andrea Konti "Parma"ya keçib. Qol.az xəbər verir ki, 26 yaşlı müdafiəçi icarəyə verilib.**

"Parma"nın Kontini icarədən sonra 7 milyon avroya transfer etmək hüququ var.

Qeyd edək ki, Andrea bu mövsüm "Milan"da 2 oyun keçirib. Onun "qırmızı-qaralar"la 2022-ci ilin iyununa qədər müqaviləsi var.

---

**Quba şəhər Zaur Cəfərov adına 3 nömrəli tam orta məktəbi tərəfindən Quba şəhər sakini Səfərbəyov Rəşad Telman oğlunun adına verilmiş 2015-ci ildə məktəbin IX sinfini eksternat qaydada bitirməsi haqqında ümumi orta təhsil barədə A 596235 nömrəli Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 50**
Çapa imzalanmışdır:
18.01.2021